HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 03 (897) ■ 24 yanvar 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# 20 Yanvar – hüzn və qəhrəmanlıq salnaməsi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.**



Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də ovaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi. Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

**AZƏRTAC**

# Paytaxt Bakı dayanıqlı elektrik enerjisi ilə təmin olunur

**Ötən həftə Prezident İlham Əliyev «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib. Dövlətimizin başçısı obyektlərin rəmzi açılışını bildirən lenti kəsib.**



Yeni yarımstansiya barədə Prezident İlham Əliyevin məlumat verilərək bildirilib ki, 1954-cü ildə tikilən və istismar müddəti başa çatan 220 saylı yarımstansiya tamamilə köhnəlmişdi. Dövlət başçısının sərəncamlarına əsasən Bakı şəhərində həyata keçirilən infrastruktur layihələri, çoxmənzilli binaların tikintisi ilə əlaqədar həmin sosial obyektlərin dayanıqlı elektrik təchizatını təmin etmək üçün bir sıra yarımstansiyaların, o cümlədən 220 saylı yarımstansiyanın yerində qapalı tipli, müasir avadanlıqlarla təchiz edilən yeni yarımstansiya, həmçinin ərazidən səmərəli istifadə etməklə Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Paytaxtın Xətai, Nəsimi, Nərimanov və Səbail rayonlarının böyük hissəsini, o cümlədən bir çox strateji obyektləri elektrik enerjisi ilə təchiz edən yeni yarımstansiya əsaslı şəkildə genişləndirilib. Bu energetika qurğusunun gücü iki dəfədən çox artırılaraq 100 meqavoltamperə çatdırılıb. Hazırda həmin yarımstansiya 100 mindən çox sakini əhatə edən 25 min abonenti, həmçinin perspektivdə yaradılacaq obyektləri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Yarımstansiyada müasir tipli vakuum və eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri quraşdırılıb. Bununla yanaşı, həmin yarımstansiya SCADA - məsafədən dispetçer idarəetmə sisteminə qoşulub ki, bu da birbaşa elektron idarəetməni təmin edir.

Qeyd olunub ki, yeni inzibati binada əməkdaşların səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. «Azərişıq» ASC-nin balansındakı bütün inzibati binalarda ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Bakı Paylayıcı Şəbəkəsinin inzibati binasındakı iclas salonu da müasirliyi ilə seçilir.

Sonra Prezident İlham Əliyevə Bakı Rayon Elektrik Təchizatı və Satışı İdarəsinin yenidən qurulan 110/35/10 kilovoltluq «Yasamal-1» yarımstansiyası barədə məlumat verilib. Bildirilib ki, bu yarımstansiya Bakı şəhərində tikilən ilk 110 kilovoltluq yarımstansiyalardan biridir. Həmin yarımstansiya fiziki və mənəvi baxımdan istismarını tam başa vurmuşdu, günün tələblərinə cavab vermirdi, artan yüklərin qarşılanmasında, istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsində problemlər yaranırdı. Yeni inşa olunan yaşayış binalarının artan güc tələbatını ödəmək, perspektiv inkişafa uyğun olaraq digər istehlakçıları dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün «Yasamal-1» yarımstansiyası tamamilə yenidən qurularaq gücü iki dəfədən çox artırılıb. Həmin yarımstansiyada 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, məsafədən idarə edilən SCADA dispetçer mərkəzi inşa olunub. «Yasamal-1» yarımstansiyası dövlət əhəmiyyətli obyektlər də daxil olmaqla, Yasamal rayonunun böyük bir hissəsini elektrik enerjisi ilə təmin edir.

Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə 110 kilovoltluq «Yasamal-1» yarımstansiyasını işə salıb. Sonra dövlətimizin başçısına 35/10-6 kilovoltluq 120 saylı və Qobu qəsəbəsi ərazisində yeni inşa edilən 110/35/10 kilovoltluq «Qobu» yarımstansiyaları barədə məlumat verilib. Qeyd olunub ki, Yasamal rayonu ərazisində 1949-cu ildə tikilib istismara verilmiş bu yarımstansiyanın da elektrik avadanlıqlarının istismar müddəti bitdiyindən və bu energetika qurğusu texniki parametrlərini itirdiyindən istehlakçıların elektrik təchizatında çətinliklər yaranırdı. Yasamal rayonunda tikilən çoxsaylı hündürmərtəbəli yaşayış binalarının, təhsil, tibb, sosial və məişət obyektlərinin elektrik təchizatını təmin etmək üçün yarımstansiyanın yenidən qurularaq gücləndirilməsi zərurəti yaranmışdı. Bu səbəbdən tamamilə yenidən tikilən 120 saylı yarımstansiyanın gücü də iki dəfə artırılıb.

Dövlətimizin başçısına «Azərişıq»ın elektrik təchizatı sxemi, 110 kilovoltluq «Bayramzadə» yarımstansiyası, Külək Elektrik Parkı və digər yenidənqurma layihələri barədə də məlumat verilib. Bakı Paylayıcı Şəbəkəsinin inzibati binası və yeni yarımstansiyalarla tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verib.

# Prezident İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasının Davos şəhərinə işgüzar səfər edib.**

Yanvarın 23-də Forum çərçivəsində «Strateji baxış: Avrasiya» mövzusunda interaktiv iclas öz işinə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib. Dövlətimizin başçısı panel müzakirələrində çıxışında regional təhlükəsizlik məsələləri barədə fikirlərini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda daxili təhdidlər və risklər yoxdur. Amma bununla yanaşı, ölkənin sərhədlərində də təhlükəsizlik təmin edilməlidir. Prezident İlham Əliyev qeyd edib ki, torpaqlarının 20 faizini işğal edən Ermənistandan başqa, Azərbaycanın bütün qonşuları ilə yaxşı münasibətləri var: «Bizim Xəzər dənizi və quru yolu ilə bütün qonşularla xüsusi əməkdaşlıq münasibətlərimiz mövcuddur. Ölkəmiz gəncdir, cəmi 26 yaşı var. Lakin Azərbaycan özünü əsl müstəqil ölkə kimi təsdiq edə bilib. Azərbaycan müstəqil xarici siyasət formalaşdıra bilib. Bu xarici siyasət bizim milli maraqlarımıza uyğundur və qonşularımızın maraqlarına zidd deyil».

## Dövlət başçısının Davos görüşləri...

■ Yanvarın 22-də Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti Börge Brend ilə görüşüb. Dövlətimizin başçısı Börge Brendi Dünya İqtisadi Forumunun prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Görüşdə Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib. Söhbət zamanı Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə toxunulub, ölkəmizin iştirak etdiyi qlobal layihələr, o cümlədən ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun, həmçinin icrası başa çatmaqda olan TANAP layihəsinin əhəmiyyəti vurğulanıb.

■ Prezident İlham Əliyevin dünyanın ən böyük investisiya qurumu olan ABŞ-ın «Black Rock» şirkətinin təsisçisi, müşahidə şurasının sədri və icraçı direktoru Lourens Fink ilə görüşü olub. Lourens Fink rəhbərlik etdiyi şirkət barədə dövlətimizin başçısına məlumat verib. O, hazırda 30-dan çox ölkədə 70-dən artıq ofisi olan «Black Rock» şirkətinin 6,3 milyard ABŞ dolları investisiya portfeli ilə dünyanın ən böyük investisiya şirkəti olduğunu bildirib. Azərbaycanda qeyri-neft sektorunun inkişafının, bu sahədə həyata keçirilən islahatların maraqla izlənildiyini deyib.

■ Dövlətimizin başçısı Rusiyanın «LUKOIL» şirkətinin prezidenti Vahid Ələkbərov ilə də görüşüb. Söhbət zamanı «LUKOIL» şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti müzakirə olunub, bu şirkətin 20 ildən çoxdur ki, Azərbaycana sərmayələr qoyduğu qeyd edilib. «LUKOIL» - SOCAR əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib və gələcək əməkdaşlığın istiqamətləri ilə bağlı fikir mübadiləsi aparılıb.

■ Prezident İlham Əliyevin Davosda «Mastercard» şirkətinin idarə heyətinin üzvü Tim Mörfi, «Royal Phillips» şirkətinin baş icraçı direktoru Frans van Houten, «Chevron» şirkətinin korporativ biznes inkişafı üzrə vitse-prezidenti Cey Prayer ilə də görüşləri olub. Söhbət zamanı tərəflər arasında yaranan əməkdaşlığın məmnunluq doğurduğu bildirilib, Azərbaycanın liderliyi və təşəbbüsü ilə həyata keçirilən qlobal layihələr barədə müzakirələr aparılıb.

■ «CISCO» şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilə görüşən dövlətimizin başçısı Azərbaycanın bir çox dövlət qurumları ilə «CISCO» şirkəti arasında səmərəli əməkdaşlığın olduğunu qeyd edib, ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinin icrasında şirkətin iştirak etməsinin əhəmiyyətini vurğulayıb.

■ Azərbaycan Prezidenti İlham Əliyev Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşündə onun OPEC-in baş katibi kimi fəaliyyətinin biznes ictimaiyyəti və ölkələrin gözləntilərinin reallaşmasında mühüm rol oynadığını vurğulayıb, Azərbaycanın bundan sonra da OPEC ilə uğurlu əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edərək onu ölkəmizə səfərə dəvət edib. OPEC-in baş katibi dəvəti minnətdarlıqla qəbul edib. Məhəmməd Barkindo Azərbaycanın OPEC və qeyri-OPEC ölkələrinin bir araya gətirilməsi və 2016-cı ilin dekabrında bununla bağlı tarixi qərarın qəbul edilməsində fəal liderlik rolunu yüksək qiymətləndirib.

Vergi sahəsində ikitərəfli münasibətlər müzakirə olunub
səh. 2

Yeni aksiz dərəcələri qüvvəyə mindi
səh. 3

Biznesin asanlaşdırılması öz bəhrəsini verir
səh. 4

«ASAN xidmət»in yaradılmasından 5 il ötür...
səh. 5

# Vergi sahəsində ikitərəfli münasibətlər müzakirə olunub



Yanvarın 16-da vergilər naziri Mikayıl Cabbarov Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı səfiri Robert Sekuta ilə görüşüb.

Görüşdə Azərbaycan və ABŞ arasında vergi sahəsində ikitərəfli münasibətlərin mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə edilib. Tərəflər mövcud əməkdaşlığın daha da gücləndirilməsi və inkişafında maraqlı olduqlarını, işgüzar əlaqələrin bu əməkdaşlığa töhfə verdiyini bildiriblər. Söhbət zamanı ölkəmizin vergi mühiti, xarici investorlar üçün mövcud şərait, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Mətin Eynullayev vergilər nazirinin müavini vəzifəsinə təyin edilib

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə vergilər nazirinin müavini vəzifəsinə təyin edilmiş Mətin Balasən oğlu Eynullayev 22 mart 1975-ci ildə anadan olub.

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin məzunudur. Dövlət qurumlarında yüksək vəzifələrdə, o cümlədən təhsil nazirinin müavini vəzifəsində çalışıb.

# Vergisi ödənilən gəlir halal gəlirdir...

**İşçi qəbulu zamanı əmək müqaviləsinin bağlanmaması və bu məsələdə gizli razılaşmaların mövcudluğu vətəndaşların hüquqlarının kobud şəkildə pozulmasına yol açan bir sıra problemlərin yaranmasına səbəb olur. Həmin problemlərdən biri də gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsidir. İqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, müəssisələrdə işçilərin adının olub özünün olmaması, rəhbər vəzifəli şəxslərin müxtəlif qeyri-qanuni yollarla öz qazanclarını artırması və s. bu kimi neqativ hallar ölkənin iqtisadi həyatına ciddi ziyan vurur.**

Ötən il martın 17-də Prezident İlham Əliyev qeyri-rəsmi məşğulluğun aradan qaldırılması sahəsində əlavə tədbirlər haqqında müvafiq sərəncam imzalamışdır. Sərəncama əsasən, «Əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi və koordinasiyası komissiyası» yaradılmış və onun qarşısında konkret vəzifələr qoyulmuşdur. Komissiyanın sədri, Baş nazirin müavini Əli Əhmədovun sözlərinə görə, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Bu baxımdan, əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün daha etibarlı hüquqi baza yaradılacaq və Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Mülki Məcəllədə bir sıra dəyişikliklər ediləcək. Dəyişikliklərdən sonra əmək müqaviləsi olmadan işçi qüvvəsindən istifadə etmək imkanları xeyli məhdudlaşdırılacaq. Xüsusilə tikinti sahəsində qeyri-rəsmi məşğulluğa münbit zəmin yaradan sifarişçi-podratçı-subpodratçı münasibətləri təkmilləşdiriləcək, bağlanan müqavilələrdə tikintinin ümumi dəyəri, əməkhaqqı fondu, əmək məsrəfi, o cümlədən vergi və sosial sığorta ödəmələri ilə bağlı göstəricilər məcburi xarakter alacaq. Bütün bunlardan sonra tikintidə işçilərin sayını gizlətmək həm qeyri-mümkün, həm də tamamilə mənasız olacaq.

> “ **Əmək münasibətlərinin rəsmiləşdirilməsi üçün daha etibarlı hüquqi baza yaradılacaq və Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Mülki Məcəllədə bir sıra dəyişikliklər ediləcək**

Mühüm yeniliklərdən biri də bu olacaq ki, yeni yaradılan iş yerlərinə dair məlumatlar yalnız əmək müqaviləsi bağlandığı halda Dövlət Statistika Komitəsi tərəfindən qəbul olunacaq və bu tələb qeyri-rəsmi məşğulluğun qarşısını almağa, xüsusilə də iş yerlərinin yaradılmasına töhfə verə biləcək. Xidmət və ticarət sahələrində qeyri-rəsmi məşğulluqla mübarizədə böyük təcrübə toplamış ölkələrdə olduğu kimi, «işçi sayı normativləri» deyilən anlayışlardan istifadə olunacaq. Misal üçün, 1000 m2 sahəsi olan iaşə müəssisəsində 3-5 nəfərin işləməsi (indi belə hallar kifayət qədərdir) real ola bilməz. Əgər həmin iaşə obyektinin iş həcmi azdırsa, bu, mənfəət baxımından faydalı deyil. Nəhayət, elektron informasiya uçot və nəzarət formasından geniş istifadə ediləcək. Məqsəd isə ondan ibarətdir ki, heç bir işçi uçot və nəzarətdən kənar qalmasın. Sahibkar bunu nə qədər istəsə də, qanunvericiliyin təkmilləşdirilməsi və işləmə mexanizmlərinin yaradılması sayəsində texniki imkanlar buna şərait yaratmayacaq.

Baş nazirin müavini bildirib ki, vergisi ödənilən gəlir halal gəlir hesab edilir: «Mən tövsiyə edərdim ki, sahibkarlar, iş adamları qanunla nəzərdə tutulan bütün ödəmələri könüllü surətdə həyata keçirsinlər. Belə olan halda, onları gözləyən bir çox problemlər avtomatik aradan qalxacaq. «Doğruya zaval yoxdur», - deyiblər. İstərdim ki, bizim sahibkarlar və iş adamları həmişə doğru olsunlar...».

**Rəşad SADIQOV**

# Elektron qaimə-faktura vergidən yayınmanın qarşısını alır, şəffaflığı təmin edir

**2017-ci ilə qədər sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturalar kağız formasında tətbiq olunurdu. Əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınması məqsədilə ötən il Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edildi.**

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə elektron qaimə-fakturanın tətbiqinə başlanılması üçün hüquqi baza yaranıb. Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli qərarına əsasən, «Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları» təsdiq edilib. Həmin Qaydaların 3-cü bəndi ilə elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun olaraq mərkəzləşdirilmiş qaydada uçotunun aparılması və tətbiqi Vergilər Nazirliyinə tapşırılıb.

Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilən hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, digər vergi ödəyiciləri isə 2018-ci il yanvarın 1-dən elektron qaimə-faktura təqdim edirlər.

## E-qaimə-faktura necə hazırlanır?

Vergi ödəyiciləri elektron qaimə-fakturaları iki üsulla hazırlaya bilərlər. Birincisi, «Elektron imza»dan istifadə etməklə onlayn rejimdə. Ödəyici bu zaman İnternet Vergi İdarəsinin (www.e-taxes.gov.az) «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçərək «Elektron qaimə» altbölməsinə daxil olur və onlayn rejimdə elektron qaimə-fakturanı tərtib edir və digər vergi ödəyicisinə təqdim edir. İkinci üsul oflayn rejimdir: vergi ödəyicisi elektron qaimə-fakturanı tərtib etmək üçün xüsusi proqram təminatını («Elektron Faktura Tərtibatı Proqramı - eFP») İnternet Vergi İdarəsinin «e-Qaimə-faktura» bölməsinin «Lazımlı proqramlar» altbölməsindən öz kompüterinə yükləyir, tələb olunan qaimə-fakturaları bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlayır və paketləyir. Sonra paket faylını oflayn rejimdə «Asan DOC client» və ya «e-İmzalayıcı» proqramların biri vasitəsilə imzalayır. İstifadəçi paket faylını «Asan DOC» portalı vasitəsilə də imzalaya bilər. Sonda gücləndirilmiş elektron imza vasitəsindən («ASAN imza» və ya «Elektron imza») istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «Elektron qaimə» altbölməsinə daxil olur və imzalanmış «adoc» və ya «edoc» tipli faylı «Paket göndər» düyməsi vasitəsilə sistemə yükləyir. Yükləmə zamanı sistem tərəfindən elektron qaimə-fakturalara unikal seriya və nömrələr verilir və qarşı tərəfin elektron qutusuna göndərilir.

## Maarifləndirmə və təbliğat

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktorunun müavini Elçin Məmmədov elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyicilərinin hazırlıq səviyyəsini şərh edərək bildirib ki, e-qaimə fakturanın tətbiqinə başlanmazdan əvvəl vergi ödəyicilərinə xidmət strukturları tərəfindən maarifləndirici və məlumatlandırma-izahedici tədbirlər həyata keçirilib, vergi ödəyicilərinə xidmət mərkəzlərində bununla bağlı yarana biləcək sualların aradan qaldırılmasına zəruri kömək göstərilməsinə başlanıb: «2017-ci ilin yanvar ayından maarifləndirmə işləri çərçivəsində müxtəlif informasiya kanallarının imkanlarından istifadə olunub. Nazirliyin «195-1» Çağrı Mərkəzi və digər xidmət strukturları vasitəsilə ödəyicilərin elektron qutularına məktublar göndərilib. Həmin məktublarda e-qaimə fakturanın tətbiqi ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklər, onun tətbiqi və tərtibi qaydalarına dair izahedici məlumatlar, onun ödəyici üçün əhəmiyyəti, e-qaimə-faktura tətbiq olunmadığı halda nəzərdə tutulan məsuliyyət və digər informasiyalar əksini tapıb və sahibkarlara risklərin yaranmaması və onların maliyyə itkilərinə məruz qalmaması üçün qanunvericiliyin tələblərinə əməl etmələri tövsiyə olunub. E-qutulardakı məktubları oxumayan ödəyicilərə SMS-lər göndərilib. Regionlarda keçirilən silsilə görüşlərdə vergi ödəyicilərinə e-qaimə-faktura barədə geniş məlumatlar verilib, onların sualları ətraflı cavablandırılıb».

Qeyd edilib ki, vergi ödəyicilərinin məlumatlandırılması üçün Vergilər Nazirliyinin multimedia resurslarının, o cümlədən taxes.gov.az veb saytının və sosial media resurslarının imkanlarından geniş istifadə edilib: «Böyük auditoriyaya malik «Facebook», «Twitter» sosial şəbəkələrində, «Youtube» hostinqində istifadəçilər arasında mütəmadi olaraq təbliğat işləri aparılıb. Bundan başqa, nazirlik ilə ATV kanalının birgə layihəsi olan «İqtisadi zona» verilişində ödəyicilərin maarifləndirilməsi üçün materiallar verilib. Nazirlik tərəfindən e-qaimə-faktura haqqında praktiki vəsait hazırlanıb və internet saytında yerləşdirilib».

> **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, digər vergi ödəyiciləri isə 2018-ci il yanvarın 1-dən elektron qaimə-faktura təqdim edirlər**

E.Məmmədov elektron qaimə-fakturanın sahibkarlar üçün üstünlüklərini də vurğulayıb: «Sahibkarlar bilməlidirlər ki, elektron qaimə-fakturanın tətbiqi vergi ödəyicilərinin özləri üçün də mühüm əhəmiyyət daşıyır. Ən böyük üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasıdır. Nəticədə mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür».

## Müşahidələr göstərir ki...

Ərazi vergi orqanları ilə iş üzrə departamentin baş direktorunun müavini, Büdcə proqnozlarının icrasına nəzarət idarəsinin direktoru Nəsib İsgəndərovun sözlərinə görə, ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ötən ilin aprel ayının 1-dən mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə qaimə-fakturalar elektron formada təqdim edilir: «2017-ci il ərzində 7841 əlavə dəyər vergisi ödəyicisi tərəfindən 4.479.153 elektron qaimə-faktura təqdim olunub. Bu əməliyyatların ümumi dəyəri 23.520,7 milyon manatdan artıqdır. Aparılan təhlillər göstərir ki, ƏDV ödəyiciləri tərəfindən elektron qaimə-fakturaların təqdim edilməsində elə bir ciddi problem ortaya çıxmasa da, cari ilin yanvar ayının 1-dən etibarən e-qaimə-faktura təqdim etməli olan sadələşdirilmiş vergi ödəyiciləri hələ buna alışmayıblar və onların çoxu əvvəlki kimi e-qaimə-faktura təqdim etmədən fəaliyyət göstərirlər ki, bu da ciddi qanun pozuntusudur. Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri də vergilərdən azad olmalarına baxmayaraq, onlar tərəfindən də malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı e-qaimə faktura təqdim edilməlidir. Bölgələrdə fəaliyyət göstərən bəzi istehsalçılar fikirləşə bilər ki, bazara quş əti, yumurta, süd, qatıq çıxarıramsa, e-qaimə-faktura təqdim etməməliyəm. Bu, qətiyyən belə deyil və regionlarda qida, o cümlədən quşçuluq, heyvandarlıq, südçülük məhsullarının istehsalçıları bazara çıxardıqları malların e-qaimə-fakturasını verməlidirlər.

Ailə-kəndli təsərrüfatı ilə məşğul olan şəxslər isə fərdi sahibkar hesab edilmədiyindən, onlardan e-qaimə-faktura tələb olunmur. Həmin sənədlərin təqdim edilməsi fərdi sahibkarlar və hüquqi şəxslərə aiddir. Amma bu sahədə də müvafiq araşdırmaların aparılmasına ehtiyac var, onların arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin olub-olmaması müəyyən edilməlidir. Bu, mürəkkəb prosesdir, həmin şəxslərin fəaliyyəti, dövriyyəsi müəyyənləşdirilməli və bundan sonra vergi ödəyicisi kimi qeydiyyata alınması təmin olunmalıdır».

## Ödəyicilər dürüst uçot sistemi qurmağa ciddi yanaşmalıdırlar!

Bəzi vergi ödəyiciləri e-qaimə-fakturanı təqdim etməkdən niyə boyun qaçırırlar? Bəlkə hesab edirlər ki, bu sənədi tərtib etmək prosedurları çətindir, yaxud sənədlərin göndərilməsi rejimi mürəkkəbdir?

Vergi risklərinin təhlili və nəzarəti departamentinin Bəyannamələr idarəsinin direktoru Vüqar Əliyevin sözlərinə görə, e-qaimə-fakturanı tərtib etmək elə də çətin deyil. Sadəcə, bir çox ödəyicilər hələlik buna diqqətlə yanaşmırlar: «Vergi ödəyicilərinin e-qaimə-faktura təqdim etməməsinin müxtəlif səbəbləri var. Başlıca səbəb bəzi vergi ödəyicilərinin dürüst uçotunun olmaması və mühasibatı düzgün qurmaq istəməmələri ilə bağlıdır: «Ödəyici nə özü sənədi təqdim edir, nə də ondan mal alan şəxslərin e-qaimə-faktura təqdim etməsinə imkan verir. Hər iki tərəf dövriyyələrini gizlətmək üçün buna əl atır. Çünki e-qaimə-faktura sayəsində vergi ödəyicisinin bütün fəaliyyəti, onun gün, ay və il ərzində apardığı hər bir əməliyyat öz əksini tapır».

E-qaimə-fakturanın tətbiqi sahibkarlıq subyektlərində mühasibatın formalaşdırılmasını da zəruri edir. Hazırda bir sıra sadələşdirilmiş vergi ödəyicilərinin mühasibləri yoxdur, vergi bəyannamələrinin tərtib olunmasında onlara özəl vergi məsləhətçiləri kömək edirlər. Amma əslində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir şəxsin mühasibi olmalıdır.

## E-qaimənin sahibkarlar üçün böyük üstünlükləri var

V.Əliyevin sözlərinə görə, elektron qaimə-fakturanın tətbiqi ilk növbədə ödəyicilərin özləri üçün faydalıdır: «E-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Elektron qaimə-fakturanın tətbiqi sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi və xərclərin təsdiqedici sənədlərə malik olması deməkdir ki, bu da, şübhəsiz, vergi orqanları ilə yaranan bir çox mübahisələrin qarşısının alınmasına xidmət edir».

Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması bu sahədə vahid elektron baza formalaşdırır və bu da iş adamları arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir.

## Cəza tədbirləri ilə üzləşməmək üçün qanuna əməl etmək lazımdır

Elektron qaimə-fakturaya etinasız yanaşan sahibkarlar bununla sanksiyalara məruz qalmayacaqlarını düşünməməlidirlər. Çünki qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmadığına görə elektron qaimənin tətbiqindən yayınan sahibkarlar üçün çox ciddi cəza mexanizmi mövcuddur. Yəni səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək. Lakin vergi orqanının məqsədi ödəyicilərə cərimə və sanksiyalar tətbiq etmək yox, sahibkarların və dövlətin iqtisadi maraqlarının qorunması, düzgün və şəffaf fəaliyyətin təmin olunmasıdır.

Vergi orqanı əməkdaşları ödəyiciləri yeni tətbiq olunan qaydalara riayət etməyə çağırır, onları qanunla müəyyən edilmiş öhdəlikləri yerinə yetirməyə dəvət edir. Vergi orqanlarının apardığı məlumatlandırma və maarifləndirmə işlərinin məqsədi də vergi ödəyicilərini dürüst uçot və düzgün mühasibat qurmağa təşviq etməkdir.

**Elbrus CƏFƏRLİ**



# 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilib

Sovet qoşunlarının 28 il əvvəl Bakıda törətdiyi 20 Yanvar faciəsi Azərbaycan torpaqlarının bütövlüyü, müstəqillik və azadlıq uğrunda mübarizəyə qalxmış dinc əhaliyə qarşı amansız cinayət olmaqla bərabər, həm də müasir tariximizin qəhrəmanlıq səhifələrindən biri hesab olunur.

Yanvarın 19-da Vergilər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Milli Konservatoriyasında 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Mərasim iştirakçıları əvvəlcə şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edib. Sonra konservatoriyanın tələbə xorunun 20 Yanvar faciəsinə həsr olunmuş ifasından, Asəf Zeynallının, Faiq Sücəddinovun, Rauf Hacıyevin və Fikrət Əmirovun əsərlərindən ibarət ədəbi-bədii kompozisiya təqdim olunub.



# Yeni aksiz dərəcələri qüvvəyə mindi

## Siqaret və spirtli içkilərin aksiz dərəcələrinin qaldırılması yerli istehsalın stimullaşdırılmasına və daxili bazarın qorunmasına xidmət edir

Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında» qərarı 2018-ci il yanvarın 23-dən qüvvəyə minib. Qərara əsasən, tərkibində tütün olan siqarlar, ucları kəsilmiş siqarlar və siqarillaların 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 10 manatdan 20 manata, tərkibində tütün olan siqaretlərin, o cümlədən digər siqaretlər və siqarillaların 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 4 manatdan 12 manata qaldırılmışdır. Xüsusilə səməni pivəsinin 1 litri üçün aksiz dərəcəsi 1,7 manat (indiyədək 1 manat idi), təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla; üzüm suslosunun 1 litri üçün 3,5 manat (indiyədək 2 manat idi), şampan şərabının 1 litri üçün 5 manat (indiyədək 2,5 manat idi), viskinin 1 litri üçün 10 manat (indiyədək 6 manat idi) təşkil edir. Arağın 1 litri üçün aksiz dərəcəsi 10 manat (indiyədək 6 manat idi), likörün 1 litri üçün aksiz dərəcəsi 10 manat (6 manat idi) məbləğində müəyyən edilib.

Bəs aksiz vergisinə cəlb edilən tütün və alkoqollu içkilərə tətbiq olunan yeni dərəcələr yerli istehsala və istehlak bazarına necə təsir edəcək? Bu qərarın qüvvəyə minməsi ilə aksiz vergisi üzrə büdcəyə daxilolmalar nə qədər arta bilər?

### Yerli istehsala dəstək

Milli Məclisin deputatı, iqtisad elmləri doktoru Rüfət Quliyev belə hesab edir ki, yerli istehsalın stimullaşdırılması üçün bu məhsullara idxal vergisinin artırılması düzgün addımdır: «Nazirlər Kabinetinin yeni aksiz dərəcələrinə dair bu qərarı yerli istehsal olan alkoqollu içki və tütün məhsullarının istehsalının artmasına birbaşa təsir edəcək. Ümumiyyətlə, son dövrlər ölkədə tütün məmulatları və alkoqollu içkilərin istehsalı sahəsində xeyli genişlənmə müşahidə edilir. Bu, yerli məhsulların istehsalının stimullaşdırılması sayəsində əldə olunmuş müsbət nəticədir və çalışmalıyıq ki, bu tendensiya davamlı olsun».

Millət vəkilinin sözlərinə görə, ölkəyə idxal edilən spirtli içkilərin və tütün məmulatlarına vergi rüsumlarının artırılması yerli tütün və alkoqollu içkilərə tələbatı artıracaq: «Bu baxımdan, yeni aksiz dərəcələrinin tətbiqi təqdirəlayiq haldır. Sadə vətəndaşlar da bilməlidir ki, bu dəyişiklik hansısa məhsulun qiymətinin artırılmasına deyil, yerli istehsalın stimullaşdırılmasına, tütün məmulatları və alkoqollu içkilərin istehsalı ilə məşğul olan şirkətlərin fəaliyyətinin genişləndirilməsinə, yeni iş yerlərinin yaradılmasına xidmət edir».

R.Quliyev onu da vurğulayıb ki, aksiz dərəcələrinin dəyişdirilməsi yerli istehsalı artırmağla yanaşı, ixrac potensialına da birbaşa təsir edəcək. O, buna nümunə olaraq Türkiyədə və bir sıra Avropa ölkələrində idxal edilən tütün məmulatlarının və spirtli içkilərin aksiz vergisinin yüksək olmasını xatırladır: «Tələbatın daxili imkanlar hesabına ödənilməsi hər bir ölkənin iqtisadi siyasətində prioritet hesab edilir. İnkişaf etmiş ölkələrin bir çoxunda yerli məhsullara tələbatın artırılması üçün idxal məhsullarına yüksək aksiz dərəcələri tətbiq olunur. Ona görə də hesab edirəm ki, Nazirlər Kabinetinin bu qərarı tamamilə düzgün addımdır».

Milli Məclisin deputatı Azər Badamov da hesab edir ki, yeni aksiz dərəcələrinin tətbiqi iqtisadiyyatın şaxələndirilməsi, yerli istehsal hesabına əlavə gəlir mənbələrinin yaradılması strategiyasına uyğundur: «Ölkəmizdə yüksək keyfiyyətli mallar istehsal olunur. Artıq həyata keçirilməkdə olan Strateji Yol Xəritəsinin tələblərinə görə idxal malları ölkə daxilində yerli istehsala mane olmamalıdır. Biz idxal mallarının da istehlak bazarında yer almasının əleyhinə deyilik. Ancaq həmin mallar ölkədə istehsal edilən malları daxili bazardan sıxışdırmamalıdır».

Millət vəkilinin sözlərinə görə, bu qərarın tətbiqi sahibkarlığın inkişafının dəstəklənməsi yolu ilə ölkədə əlavə gəlir mənbələrinin yaradılmasına, işsizliyin aradan qaldırılması imkanlarının genişləndirilməsinə xidmət edəcək: «Bütün bunlar həm də vergi ödənişləri hesabına büdcənin gəlirlərini artıracaq. İstehsal olunan mallar daxili tələbatı ödəməklə ixrac edilməli, ölkəyə valyuta gətirməlidir. İxracın stimullaşdırılması məqsədilə 2017-ci ildə dövlət büdcəsindən ixrac olunan mallara görə sahibkarlara 2,5 milyon dollar subsidiya da ödənilib. Belə bir zamanda ölkədə istehsal edilən bəzi malların idxalına vergi aksizlərinin artırılması düzgün addımdır. Doğrudur, bu, müəyyən mallarda qiymət artımına gətirib çıxara bilər, lakin keyfiyyətcə xarici mallardan heç də geri qalmayan yerli malların qiymətləri əvvəlki kimi qalacaq və bazarda xarici mallar yerli istehsalı sıxışdırmayacaq. Alıcı öz seçimini edəcək. Hətta elə ölkələr vardır ki, daxili istehsalın stimullaşdırılması məqsədilə bəzi malların idxalına qadağa qoyub. Nazirlər Kabinetinin idxal olunan bəzi malların aksiz dərəcələrinin qaldırılması ilə bağlı qəbul etdiyi qərarı daxili bazarın qorunması məqsədi daşıdığından, bunu doğru və vaxtında atılmış addım hesab edirəm».

### Rəqəmlər nə deyir...

Azərbaycan Respublikasının 2018-ci ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında qeyd olunur ki, aksiz vergisi üzrə daxilolmalar 172 milyon manat nəzərdə tutulur. Bu isə 2017-ci ilin proqnozu ilə müqayisədə 82 milyon manat və ya 91,1% çoxdur.

Qeyd edək ki, sonuncu dəfə ölkəyə idxal olunan və ölkədə istehsal edilən alkoqollu içkilərə və tütün məmulatlarına tətbiq olunan aksiz dərəcələri 2015-ci ildə artırılaraq milli valyuta ilə müəyyən edilmişdi. Lakin ötən dövr ərzində manat ABŞ dollarına münasibətdə dəyərdən düşüb. Aparılmış təhlillər göstərir ki, alkoqollu içkilərin və tütün məmulatlarının əsasən xaricdən idxal olunması nəticə etibarilə həmin malların qiymətinin artmasına və aksiz vergisinin qiymətdə xüsusi çəkisinin azalmasına səbəb olub. Qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə aparılan siyasətə uyğun olaraq daxili bazarın qorunması, habelə alkoqollu içkilərə və tütün məmulatlarına tələbatın yerli istehsal hesabına təmin olunması məqsədilə idxal zamanı aksiz dərəcələrinin ABŞ dolları ilə müəyyən edilməsi nəzərdə tutulub.

> “Bu dəyişiklik hansısa məhsulun qiymətinin artırılmasına deyil, yerli istehsalın stimullaşdırılmasına, tütün məmulatları və alkoqollu içkilərin istehsalı ilə məşğul olan şirkətlərin fəaliyyətinin genişləndirilməsinə, yeni iş yerlərinin yaradılmasına xidmət edir

**Elxan SALAHOV**

# Fərdi sahibkarlıq üçün əlverişli biznes mühiti mövcuddur

Fərdi sahibkarlıq - hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədilə fərdi qaydada, xüsusi mülkiyyətinə əsaslanaraq, risk və məsuliyyəti öz üzərinə götürməklə həyata keçirdiyi sahibkarlıq fəaliyyətidir. Sahibkar vergi ödəyicisi kimi uçota alınan zaman seçdiyi vergitutma sisteminə və yaranan vergitutma obyektlərinə uyğun olaraq, müvafiq vergiləri (sadələşdirilmiş vergi və ya gəlir (mənfəət) vergisi, ƏDV, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan gəlir vergisi, ödəmə mənbəyində tutulan vergilər və s.) hesablayıb dövlət büdcəsinə ödəməli və müvafiq bəyannamələri vergi orqanına təqdim etməlidir.

2018-ci ilin yanvar ayının 1-nə Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 795 minə yaxınlaşıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, hər altı fərdi sahibkardan beşi «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq», «Ticarət; nəqliyyat vasitələrinin təmiri», «Digər sahələrdə xidmətlərin göstərilməsi» və «Nəqliyyat və anbar təsərrüfatı» sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (29,6%), Aran (20,9%), Gəncə-Qazax (14,0%) və Lənkəran (10,1%) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,5%-ni kişilər, 21,5%-ni isə qadınlar təşkil edib. Qadınlar «Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq» fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 27%-ni, «Digər sahələrdə xidmətlərin göstərilməsi» fəaliyyət sahəsində 25,8%-ni, «Ticarət; nəqliyyat vasitələrinin təmiri» fəaliyyət sahəsində isə 20,7%-ni təşkil edir. Sahibkar qadınların 31,4%-i Bakıda, 17,8%-i Aran, 17,1%-i Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (22,8%), Gəncə-Qazax (26,1%) və Lənkəran (22,6%) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

İqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, postneft dövründə fərdi sahibkarlar üçün daha əlverişli biznes mühitin yaradılması fərdi sahibkarlıqla məşğul olmağa marağın artmasına gətirib çıxarıb. Nəticədə 2017-ci ildə fərdi sahibkarlıqla məşğul olanların sayında artımlar var: «Fərdi sahibkarlıq vətəndaşlara fərdi qaydada öz bizneslərini qurmağa imkan verir, nəticədə yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır, bütövlükdə icma nümayəndələrinin işlə təmin olunmasını asanlaşdırır. İnkişaf etmiş dövlətlərin, xüsusilə ABŞ, Avropa İttifaqı ölkələrinin biznes təcrübəsinə diqqət yetirsək, görərik ki, fərdi sahibkarlıq rəqabətin müdafiəsi, «part time» adlanan məşğulluğun təmin edilməsi baxımından çox vacibdir. Statistika göstərir ki, fərdi sahibkarlar aqrar və xidmət sektorunda daha çox fəaliyyət göstərməyə üstünlük verirlər. Azərbaycanda aqrar sektorda fərdi sahibkarların sayının artması dövlətin də bu istiqamətdə dəstəyinin gücləndirilməsi ilə bağlıdır. Bu sahənin inkişafı xüsusilə regionlarda əlavə dəyərin yaradılması baxımından faydalı olmaqla yanaşı, ümumilikdə ölkə iqtisadiyyatına mühüm töhfə kimi qiymətləndirilməlidir».

**Fəxriyyə İKRAMQIZI**

**ELAN**

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Qeyri-neft sektoru üzrə ixrac yüksələn templə davam edib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac icmalı»nın 2018-ci il yanvar buraxılışı təqdim olunub. İcmal keçən ilin yekunlarına həsr olunub.

İcmala əsasən, 2017-ci il ərzində qeyri-neft sektoru üzrə ixrac 1 milyard 538 milyon ABŞ dolları təşkil edərək 2016-cı illə müqayisədə 24% artıb. İxrac əməliyyatlarında 1923 subyekt iştirak edib. İl ərzində ən çox qeyri-neft məhsullarımız Rusiya Federasiyasına ixrac olunub (553 milyon ABŞ dolları).

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin analitiki Ramil Hüseynin sözlərinə görə, ötən il ərzində meyvə-tərəvəz ixracı 503 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 118 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 101 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 83 milyon, kimya sənayesi məhsullarının ixracı 80 milyon, pambığın ixracı 52 milyon, elektrik enerjisinin ixracı 51 milyon, şəkərin ixracı 39 milyon, çayın ixracı 10 milyon ABŞ dolları təşkil edib. 2016-cı illə müqayisədə 2017-ci ildə pambığın ixracı 2,1 dəfə, elektrik enerjisinin ixracı 80%, tütün və tütünün sənaye əvəzedicilərinin ixracı 72%, çayın ixracı 66%, kimya sənayesi məhsullarının ixracı 42%, meyvə-tərəvəzin ixracı 35%, alüminium və ondan hazırlanan məmulatların ixracı 20%, spirtli və spirtsiz içkilərin ixracı 17%, plastmas və onlardan hazırlanan məmulatların ixracı 2% artıb.

Ötən ilin dekabr ayında isə qeyri-neft sektoru üzrə 457 subyekt tərəfindən 151.7 milyon ABŞ dolları dəyərində ixrac əməliyyatları həyata keçirilib. Ay üzrə ixrac olunan əsas mallar xurma, tomat (pomidor), qabığı təmizlənmiş meşə fındığı, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), alma, metanol (metil spirti) və s. olub. Ay ərzində xurmanın ixracının dəyəri 20,9 milyon ABŞ dolları, pomidorun ixracının dəyəri 11,4 milyon ABŞ dolları və qabığı təmizlənmiş meşə fındığının ixracının dəyəri 9,9 milyon ABŞ dolları təşkil edib. Ümumiyyətlə, 2017-ci ildə 2016-cı illə müqayisədə pomidor ixracı 61%, xurma ixracı 32%, fındıq ləpəsinin ixracı 9%, almanın ixracı 30% artıb. 2016-cı illə müqayisədə 2017-ci ildə Azərbaycandan ixrac olunan malların çeşidi də 9% çoxalıb.




İcmalda qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi verilib. 2017-ci ildə qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin siyahısında ilk onluqda «Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti»nin Azərbaycan Respublikasındakı nümayəndəliyi (83,4 milyon dollar), «Baku Steel Company» MMC (60 milyon dollar), «Azərbaycan Şəkər İstehsalat Birliyi» MMC (40,2 milyon dollar), «Sun Food» MMC (28,5 milyon dollar), «MKT İstehsalat Kommersiya» MMC (27,8 milyon dollar), «Aqrodoctor» MMC (26,1 milyon dollar), «VN Food Export Import Company» MMC (23,8 milyon dollar), «Azagroeksport 2017» MMC (23.3 milyon dollar), «Food Export Şəmkir» MMC (20,2 milyon dollar) və «Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD» MMC (19,6 milyon dollar) təmsil olunub.




2017-ci ildə peyk telekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 14 milyon ABŞ dolları, optik peyk xidmətlərinin (Azersky) ixracından isə 9 milyon ABŞ dolları gəlir əldə edilib. Ümumilikdə «Azərkosmos» ASC tərəfindən 2017-ci ildə 23 milyon ABŞ dolları dəyərində xidmət ixrac edilib. İl ərzində «Azexport.az» portalına dünyanın 74 ölkəsindən 475 milyon dollar məbləğində ixrac sifarişləri daxil olub, təkcə dekabr ayında daxil olan ixrac sifarişlərinin dəyəri isə 30,4 milyon dollar təşkil edib.

**Fəxriyyə İKRAMQIZI**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Müharibə əliliyəm. Mülkiyyətimdə olan yaşayış sahəsinə görə əmlak vergisi hansı qaydada hesablanır və ödənilir?***

Vergi Məcəlləsinin (VM) 197.1.1-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə bina Bakı şəhərində yerləşdikdə 0,4 manat və həmin dərəcələrə Nazirlər Kabinetinin müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə hesablanır (VM, maddə198.1.1).

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla VM-in 102.2-ci maddəsində göstərilən şəxslərin, habelə pensiyaçıların və müddətli hərbi xidmət hərbi qulluqçularının və onların ailə üzvlərinin müddətli hərbi xidmət dövründə binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır (VM, maddə 199.3).

Bunlarla yanaşı, yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir (VM, maddə 4.4). Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Bələdiyyələr əmlak vergisinin ödənilməsi barədə tədiyə bildirişini vergi ödəyicilərinə avqustun 1-dən gec olmayaraq verməlidirlər (VM, maddə 200.4).

Cari il üçün əmlak vergisinin məbləği bərabər hissələrlə - həmin il avqustun 15-dək və noyabrın 15-dək ödənilir. Əmlak vergisi əmlakın əvvəlki sahibi tərəfindən ödənilmədiyi hallarda, vergi bu maddə ilə müəyyən edilmiş ödəmə vaxtında həmin əmlakın sahibi tərəfindən ödənilir (VM, maddə 200.5).

Fiziki şəxslərdən əmlak vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir (VM, maddə 200.6).

«Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» 2001-ci il 27 dekabr tarixli 244-IIQ nömrəli Qanunun 11.4-cü maddəsinə əsasən yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. Bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağandır.

**Qeyd olunanlara əsasən:**

Mülkiyyətinizdə olan yaşayış sahəsinə görə əmlak vergisi onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən yaşayış sahəsinin 30 kvadratmetrdən artıq olan hissəsinin hər kvadratmetrinə görə VM ilə müəyyən edilmiş dərəcələrlə hesablanır və verginin ödənilməsi barədə tədiyə bildirişi fiziki şəxslərə çatdırılır. Hesablanmış əmlak vergisinin məbləği fiziki şəxslər tərəfindən banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələrindən istifadə edilməklə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilməlidir.

Binaların icarəyə, kirayəyə verildiyi, habelə sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğul olmaq üçün istifadə edildiyi hallar istisna olmaqla, müharibə əlili olan şəxslərin binalara görə ödəməli olduqları əmlak vergisinin məbləği 30 manat azaldılır.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Keçən il iqtisadiyyatımıza 15 milyard dollar investisiya cəlb olunub

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev Azərbaycanın investisiya siyasətini təhlil edərkən demişdir: «Həm yerli, həm də xarici investorlar ölkəmizə vəsait qoymaqa maraqlıdırlar. Bu, eyni zamanda, sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə xarici ölkələrə vəsait qoymaq bir çox investorlar tərəfindən o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə də il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək, hesab edirəm ki, böyük nailiyyətdir».

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2017-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15 milyard 550,8 milyon manat vəsait yönəldilmişdir. Bu vəsaitin 7 milyard 102,2 milyon manatı və ya 45,7%-i qeyri-neft sektoruna sərf edilmiş və nəticədə bu sahədə investisiyaların həcmi 2016-cı illə müqayisədə 6% artmışdır. Ümumi sərmayənin 73,6%-i bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. İstifadə olunmuş vəsaitin 76,3%-i məhsul istehsalı obyektlərinin, 18%-i xidmət sahələri üzrə obyektlərin, 5,7%-i isə ümumi sahəsi 1 milyon 727,4 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 44,6%-ni təşkil etmişdir. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 63,4%, bank kreditləri 14,1%, büdcə vəsaitləri 15,4%, əhalinin şəxsi vəsaitləri 5,1%, büdcədənkənar fondların vəsaitləri 1,3%, sair vəsaitlər isə 0,7% təşkil etmişdir.

Ötən il əsasən infrastruktur layihələrinin icrasına böyük vəsait cəlb olunmuşdur. Görülən işlər nəticəsində ölkənin elektrik təchizatı daha da yaxşılaşdırılmış, bir çox bölgələrdə yeni yarımstansiyalar işə düşmüşdür. Qax rayonunda 110/35/10 kV-luq elektrik yarımstansiyası, 110/35/6 kV-luq «Neftçala» yarımstansiyası, Saatlı rayonunda 110/35/10 kV-luq «Sarıcalar» elektrik yarımstansiyası, Salyan rayonunda 110/35/10 kV-luq «Qaraqaşlı» yarımstansiyası, «Yeni Gəncə» elektrik yarımstansiyası, Balakən rayonunda Su elektrik stansiyası, Zaqatala rayonunda «Bəhmənli» elektrik yarımstansiyası və s. bu qəbildən olan işlərdəndir. Elektrik təchizatının inkişafı bu il və qarşıdakı illərdə hökumətin diqqət mərkəzində olacaq.

Ötən ilin yekunlarına görə, ölkəmizin 93%-i qazlaşdırılıb. Bu il qazlaşdırma üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulur və bu prosesin 100%-ə çatdırılması əsas hədəflərdəndir. 2017-ci ildə 1300 kilometr avtomobil yolu, o cümlədən Pirşağı-Novxanı və Binəqədi-Novxanı-Corat avtomobil yolu, Ələt-Astara-İran ilə dövlət sərhədi avtomobil yolunun Masallı-Cəlilabad hissəsinin tikintisi işləri yekunlaşdırılmışdır. Bundan əlavə, il ərzində 500-dən çox kənddə yeni yollar salınmışdır.

Sosial infrastrukturla bağlı ciddi addımlar atılmış, 133 yeni məktəb tikilmiş, 14 məktəb əsaslı təmir edilmiş, 500-ə yaxın məktəbdə cari təmir işləri aparılmışdır. Naxçıvan Muxtar Respublikasında, Mingəçevir şəhərində, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində, Qazax, Qobustan, Saatlı, Samux və Tərtər rayonlarında 1154 yerlik 9 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilmişdir. Otuz tibb müəssisəsi tikilmiş və əsaslı təmir edilmiş, iki Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir.

İqtisadiyyatın istehsal və emal sahələrində də yeni-yeni müəssisələr yaradılmışdır. Sumqayıt şəhərində yenidən qurulan boruyayma zavodu, Yevlax şəhərində Varvara balıqartırma və balıqyetişdirmə zavodu, Lənkəran şəhərində çəltik zavodu, Ağcabədi rayonunda çörək və un məmulatları zavodu, Cəlilabad rayonunda dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsi, Gədəbəy rayonunda limonad zavodu və s. obyektlər fəaliyyətə başlamışdır.

Yeri gəlmişkən, bu il yanvarın 18-də Prezident İlham Əliyev investisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı daha bir sərəncam imzalamışdır. Sərəncamda bildirilir ki, iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatlar genişləndirilməli, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti, həmçinin investisiyaların qorunması sahəsində qanunvericilik daha da təkmilləşdirilməlidir. Təhlillər göstərir ki, xarici investorlar tərəfdaşlıq zəminində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət yetirirlər. 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir. Bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan verəcəkdir. Sərəncama əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti «İnvestisiya fəaliyyəti haqqında» və «Xarici investisiyanın qorunması haqqında» qanunların əsasında, beynəlxalq təcrübəni nəzərə almaqla, yeni «İnvestisiya fəaliyyəti haqqında» qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Qanun layihəsində aşağıdakı məsələlər tənzimlənməlidir:

- investisiya fəaliyyəti sahəsində dövlət siyasətinin əsas istiqamətləri;
- investisiya fəaliyyətinə təşviq edən tədbirlərin məcmusu;
- investorların hüquqlarının qorunması mexanizmləri, onlara dövlət zəmanəti verilməsi qaydası;
- mübahisələrin danışıqlar, məhkəmə, həmçinin arbitraj yolu ilə həlli üsulları (beynəlxalq arbitraj qaydalarının müddəaları nəzərə alınmaqla);
- investorlara vurulmuş zərərin, o cümlədən əldən çıxmış faydanın ödənilməsi qaydası.

**Rəşad SADIQOV**




**2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir. Bu sahədə aparılacaq islahatlar iqtisadiyyatda özəl investisiyaların payının artmasına təkan verəcəkdir**

# Biznesin asanlaşdırılması öz bəhrəsini verir

Azərbaycanda dövlət-sahibkar münasibətlərinin daim təkmilləşdirilərək inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, ölkədə istehsal olunan məhsulların rəqabət qabiliyyətliliyinin artırılması ilə ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi sahəsində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib ki, ötən il ölkədə aparılan iqtisadi islahatlar səmərəli olub və beynəlxalq maliyyə təşkilatları Azərbaycanda gedən proseslərə yüksək qiymət verib. Ölkədə biznes mühiti sahəsində islahatlar 2018-ci ildə də davam etdiriləcək.

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, iqtisad üzrə fəlsəfə doktoru Aqil Eyvazovun sözlərinə görə, ötən il dövlət tərəfindən sahibkarlığın inkişafına əməli dəstək verilib: investisiya fəaliyyəti ilə bağlı əlavə tədbirlər görülüb, tikintiyə icazə verilməsi qaydaları sadələşdirilib, dövlət əmlakının özəlləşdirilməsi prosesi və ixrac mallarının gömrük sərhədindən keçirilməsi mexanizmi təkmilləşdirilib. Digər sahələrdə də səmərəli islahatlar aparılıb. Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatlar davam etdirilib: «2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə dəyişikliklərin əsas məqsədi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları ilə sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, vergi yükünün optimallaşdırılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, onların vaxt itkisinə məruz qalması və vergi öhdəliklərinin daha rahat şəkildə yerinə yetirilməsi, bir sıra vergi ödəyiciləri üçün güzəştlərin müəyyən edilməsi yolu ilə sosial bərabərliyin təmin olunmasına imkan yaradır. Nağdsız əməliyyatların həcminin artırılması vergitutma bazasının genişləndirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, uçotun dürüstlüyünün və şəffaflığının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

A.Eyvazov bildirib ki, 2018-ci ildə ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyinin artırılması, makroiqtisadi sabitliyin təmin olunması istiqamətində dövlət tərəfindən bütün zəruri tədbirlərin davam etdiriləcəyi ölkə iqtisadiyyatının perspektivlərini gücləndirir. Dövlət və özəl sektor arasında effektiv koordinasiya və səmərəli əməkdaşlığın təşkili, elektron dövlət xidmətləri göstərilən sahələrin əhatə dairəsinin genişləndirilməsi, ümumilikdə Azərbaycanda biznes və investisiya mühitinin daha da sağlamlaşdırılması xarici və yerli investorların sərmayə qoyması üçün ilkin şərt yaradır. İxracla bağlı yürüdülən siyasət ölkəyə xarici investisiyaların cəlbində, ixracın artırılmasında və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılmasında müstəsna rol oynayır.

## Sahibkarlar mövcud biznes mühitini necə qiymətləndirirlər...

***Fərhad Musayev:*** Lisenziyalar və qeydiyyat sahəsində aparılan təkmilləşdirmələr, regionlarla bağlı yürüdülən çevik siyasət bölgələrdə iqtisadi imkanlardan daha səmərəli istifadə olunmasına, qeyri-neft sektorunun inkişafına öz töhfəsini verir.

***Vilayət Abbasov:*** Ötən il hökumət həm sahibkarlığın inkişafı ilə bağlı hüquqi-instisional islahatlar həyata keçirdi, həm də bizneslə məşğul olanların fəaliyyətinin stimullaşdırılmasına maliyyə dəstəyi göstərdi. İxracla məşğul olan sahibkarlara investisiya təşviqi vəsaitinin ödənilməsi, onların xarici bazarlara çıxışına müxtəlif təşviqedici vasitələrlə yardım göstərilməsi təqdirəlayiqdir.

***İsmayıl Orucov:*** Azərbaycanda ənənəvi sahələrin inkişafına göstərilən dövlət dəstəyi sahibkarlar tərəfindən xoş niyyətlə qarşılanır. Dövlətin azad biznesə göstərdiyi diqqət bölgələrdə çalışan kiçik sahibkarlar üçün yeni imkanlar yaradır. Təsərrüfatın bəzi sahələrində xüsusi dönüş müşahidə edilir. Findıqçılığı qeyd etmək istərdim: ötən il bu sahənin inkişafında yüksək artım əldə olunub.

***Elçin Qurbanov:*** Biznesə başlamaq üçün qeydiyyat sisteminin sadələşdirilməsini, lisenziyaların sayının azaldılmasını, yoxlamaların dayandırılmasını müsbət hal hesab edirəm. Bəzi texniki çətinliklərin aradan qaldırılmasını, məsələn, bölgələrdə saxlama tədarük məntəqələrinin yaradılmasını, daxili bazarda rəqabətin təmin olunmasını istərdim.

***Arif Həsənov:*** Ötən il yoxlamaların dayandırılması müddətinin daha 4 il uzadılmasını biznes mühitinin sağlamlaşdırılmasında ən mühüm addımlardan biri hesab edirəm. Bu, sahibkarların azad fəaliyyəti üçün böyük dəstəkdir.

***Zakir Rəhimov:*** Bizim şirkət turizm xidmətləri sahəsində fəaliyyət göstərir. Son illər biznes sektorunda tətbiq olunan yeniliklər turizm üçün də əhəmiyyət kəsb edir. Viza rejiminin sadələşdirilməsi bu sahəyə yerli və xarici sərmayəçilərin cəlb olunmasına geniş imkanlar açıb. «ASAN viza» və səmərəli biznes fəaliyyətinin təmin edilməsi, lisenziyaların sayının azaldılması və verilməsi prosedurlarının sadələşdirilməsi, bu sahədə şəffaflığın əldə olunması turizm sektotuna marağı xeyli artırıb.

***Cahid İsmayılov:*** Yerli şirkətlər üçün yeni dəstək mexanizmləri tətbiq olunur, onlar «Made in Azerbaijan» brendinin tanıdılması ilə bağlı tədbirlərdən faydalanırlar. Ötən il bir sıra ölkələrə təşkil edilən ixrac missiyaları ixracla məşğul olan sahibkarlar üçün böyük köməkdir.

**Elbrus CƏFƏRLİ**

# «ASAN xidmət»in yaradılmasından 5 il ötür...

«ASAN xidmət» Azərbaycan brendi olaraq bu gün bütün dünyada tanınır və təqdir edilir. Hazırda ölkədə fəaliyyət göstərən 12 xidmət mərkəzinə bu illər ərzində 20 milyona yaxın vətəndaş müraciət edib.

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən respublikada aparılan genişmiqyaslı islahatlar çərçivəsində «ASAN xidmət» adlı yeni bir qurumun yaradılması qısa müddət ərzində təkcə ölkəmizdə deyil, bütün dünyada böyük rəğbətlə qarşılandı. Artıq müxtəlif beynəlxalq təşkilatlar, xarici dövlətlərin nümayəndələri tərəfindən yüksək qiymətləndirilən və Azərbaycan brendi kimi məşhurlaşan «ASAN xidmət» bir intellektual məhsul kimi böyük populyarlıq qazanmış, hətta bir sıra ölkələrdə onun tətbiq və təşviqinə başlanılmışdır. BMT tərəfindən «ASAN xidmət» ictimai xidmətlərin göstərilməsi sahəsində birinci yerə layiq görülüb.

***Vətəndaş həmişə haqlıdır!***

Azərbaycan Respublikası Prezidentinin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Hüseynovun sözlərinə görə, qarşıya qoyulan mühüm tapşırıq ən yüksək vətəndaş məmnunluğuna nail olmaq idi: «ASAN xidmət»in əsas prinsipi budur: vətəndaş həmişə haqlıdır! Bizim fəaliyyət prinsipimiz bütün xidmətlərin vahid məkanda birləşdirilməsi və vətəndaşlar üçün rahatlığın yaradılması, innovasiyaların tətbiqi və şəffaflığın təmin edilməsidir. Bizə müraciət edən vətəndaş hər addımda üzləşdiyi suala dərhal və yerindəcə operativ cavab ala bilir. İnsanlarla yeni tərzdə davranış üçün əməkdaşlarımıza stressin idarə olunması, motivasiya, çətin müştərilərlə iş, bədən dili və müştəriləri tanımaq bacarığı üzrə davamlı təlimlər keçilir.

***Xidmət mərkəzlərinin sayı artacaq***

A.Hüseynov qeyd edib ki, «ASAN xidmət»in uğur formulu və bütün dünyada brend olaraq tanınması bir neçə faktorla bağlıdır. Bunlardan ən önəmlisini hüquqi struktur təşkil edir. Qurum təşkilati formasına görə dünyada unikal bir xidmət strukturudur. İkinci əsas faktor dövlət tərəfindən göstərilən dəstəkdir. Bu qayğının sayəsində vətəndaş məmnunluğunu 100 faiz səviyyəsində qoruyub saxlaya bilmişik. Daha bir vacib element isə «ASAN xidmət» mərkəzlərinin vətəndaşa fiziki olaraq əlçatan olmasıdır: «Mərkəzlərin əlçatanlılığının yaxşılaşdırılması, vətəndaşa fiziki və coğrafi baxımdan xidmətləri daha yaxın etməkdən ötrü bu il Mingəçevirdə, İmişlidə və Şəkidə üç «ASAN həyat» kompleksinin açılması nəzərdə tutulub. «ASAN xidmət» mərkəzləri ilə yanaşı, vətəndaşlara 10 səyyar avtobus da xidmət göstərir ki, bunun vasitəsilə 1 milyon 200 mindən çox müraciətə baxılmışdır. Bundan əlavə, «ASAN qatar» konsepsiyası da fəaliyyətdədir.

***Sağlam mühit uğura açılan qapıdır***

«ASAN xidmət» 10 dövlət orqanının vahid işidir, bu orqanların nümayəndələri bir ailə kimi fəaliyyət göstərirlər. Burada həmin orqanlarla yanaşı, özəl sektor nümayəndələrinin də birgə işi var. Vahid «ASAN xidmət» ailəsinin kollektivi artıq 3000-ə çatmaqdadır.

A.Hüseynovun sözlərinə görə, uğurun əldə olunmasının əsas səbəblərindən biri 10 dövlət orqanı nümayəndələrinin, özəl sektor və eləcə də könüllülərdən ibarət bir komandanın ümumi işinin mövcud sağlam mühitdən qaynaqlanmasıdır. «ASAN xidmət» yeni nəsil dövlət xidmətləri təqdim etməklə yanaşı, yeni nəsil dövlət qulluqçularının yaranmasına da təkan verir ki, bu sahədə ən böyük istiqamətlərdən biri mərkəzlərdə xidmət göstərən könüllülərlə bağlıdır: «14 minə yaxın könüllümüz əvvəlcə iki aylıq «master bir» adlanan təlim proqramı keçirlər. İki aydan sonra könüllülük fəaliyyəti üçün digər dövlət qurumlarına ezam olunur və ezamiyyəni bitirdikdən sonra «ASAN kadr» layihəsinə qoşulurlar. Bu günədək 850-yə yaxın gənc «ASAN kadr» vasitəsilə müxtəlif sahələr üzrə işlə təmin ediliblər.

> «ASAN xidmət» yeni nəsil dövlət xidmətləri təqdim etməklə yanaşı, yeni nəsil dövlət qulluqçularının yaranmasına da təkan verir

***Sahibkarlığın inkişafına töhfə***

«ASAN xidmət» mərkəzlərinin fəaliyyətini bir sıra sahələr üzrə qiymətləndirmək olar. Ən önəmlisi burada sahibkarlığın inkişafı istiqamətində iş adamlarına yaradılan şərait və imkanlardır. Lisenziyaların verilməsi, kiçik və orta sahibkarlıq evinin mərkəzlərlə bağlı fəaliyyəti, eləcə də vətəndaşın bir sahibkar kimi formalaşmasında mühüm önəm kəsb edən «ABAD» layihəsi...

A.Hüseynov bildirib ki, lisenziyaların verilməsi ilə bağlı əhəmiyyətli sadələşdirmə tədbirləri həyata keçirilib, lisenziyaların sayı azaldılaraq 37-yə çatdırılıb, verilmə müddəti 10 gün müəyyən edilib. Müddətsiz lisenziyaların sayında da artım müşahidə olunmaqdadır, rüsumlar isə iki dəfəyə yaxın azalıb. Bu gün İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» vasitəsilə sahibkarlara 5000-ə yaxın lisenziya verilib.

***Elektronlaşdırma, şəffaflıq, operativlik...***

Daim təkmilləşməkdə olan «ASAN xidmət»in əsas predmetlərindən biri də elektronlaşma, elektron hökumət quruculuğudur. Artıq iki ilə yaxındır ki, fəaliyyət göstərən «ASAN kommunal» vasitəsilə «Azəriqaz», «Azərişıq» və «Azərsu» səhmdar cəmiyyətlərinin vətəndaşlara daha çevik və yüksək səviyyəli xidmət göstərmələri üçün hər cür şərait yaradılıb.

«ASAN xidmət» elektron hökumət quruculuğunda da mühüm işlər həyata keçirir. Bu xidmət həm vətəndaşlara, həm də müvafiq qurumlara «ASAN ödəniş», «ASAN viza», «ASAN xidmət indeksi» kimi imkanlar təqdim edir. «ASAN viza» ötən il yanvar ayının 10-dan fəaliyyətə başlayıb. Artıq Azərbaycana səfər edən bir neçə ölkənin təmsilçiləri bu unikal modeli öyrənərək tətbiqinə başlayıblar. «ASAN viza» üçün müraciət cəmi 3 dəqiqə vaxt aparır. Hazırda «ASAN viza.2» üzərində iş gedir və bu konseptə görə Azərbaycan vətəndaşları da 2018-ci ilin birinci rübündə «ASAN imza» portalı vasitəsilə viza almaq üçün xarici ölkə səfirliklərinə müraciət edə biləcəklər.

Digər vacib tədbirlərdən biri də dövlət xidmətlərinin reyestridir: burada 760-a yaxın xidmət qeydiyyata alınıb və reqlamentləri sistemə daxil edilib. Bu xidmətlərin də mərhələli şəkildə elektronlaşdırılması nəzərdə tutulur.

***Əmək münasibətlərinə nəzarət***

Əmək münasibətlərinin monitorinqi ötən ilin ortalarından başlayaraq «ASAN xidmət»in nisbətən yeni həyata keçirdiyi layihələr sırasındadır. Ölkə başçısının sərəncamına əsasən, Dövlət Agentliyinin tərkibində bu sahə üzrə yaradılan monitorinq mərkəzinin əsas məqsədi yaşayış evlərinin tikintisi zamanı əmək müqavilələrinin bağlanılmasına nəzarət və bununla bağlı bildirişlərin mərkəzi sistemə daxil edilməsinin həyata keçirilməsidir. Ötən ilin sentyabrından başlanılan monitorinqlər nəticəsində 11 minə yaxın yeni əmək müqaviləsi və bildirişləri sistemə daxil edilib. Bu sahədə digər qurumlarla, xüsusilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə də iş aparılır. Müqavilələrin bağlanmadığına görə inzibati, hətta cinayət məsuliyyəti yaradan hallara aid materiallar aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Baş Prokurorluğa təqdim edilir.

***«ASAN peşə» layihəsi: az vaxtda böyük nailiyyət***

Təhsil Nazirliyi ilə birgə həyata keçirilən bu layihənin əsas məqsədi peşə təhsili müəssisələrinə qəbulun «ASAN xidmət» vasitəsilə həyata keçirilməsidir. Artıq qısa müddət ərzində böyük uğur qazanan layihə çərçivəsində ilk peşə ixtisas təhsili müəssisələrinə elektron sənəd vasitəsilə 11.684 nəfər müraciət edib. Gələcəkdə Mingəçevir «ASAN xidmət» mərkəzində bir qədər fərqli formatla Peşə Təhsili Dövlət Agentliyi Təhsil Nazirliyi ilə birlikdə «ASAN həyat» kompleksi çərçivəsində peşə müəssisəsi yaratmaq, orada fəaliyyət göstərəcək könüllülərin işinin fəallaşdırılması, o cümlədən peşə təşviqinin qurulması üçün daha bir layihənin həyata keçirilməsi planlaşdırılır.

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Vergi ödəyiciləri məlumatlandırılır

Ötən il Vergilər Nazirliyi tərəfindən «Əmək müqaviləsinin rəsmiləşdirilməsi» adlı flayer, həmçinin «Əmək müqaviləsinin bağlanması: hüquqi və inzibati prosedurlar» adlı kitabça hazırlanmışdır. Bunlardan əlavə, vergi ödəyicilərinin elektron qutularına «Elektron qaimə-fakturanın tətbiqi barədə» müvafiq elan və yazılı mesaj göndərilmiş, sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində yayımlanmışdır.

«Vergi partnyorluğu sazişi» və musiqiçilərin mövcud qanunvericiliyin tələblərinə əməl etməklə vergi öhdəliklərinin tam həcmdə və vaxtında yerinə yetirilməsi barədə aidiyyəti vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə müvafiq «bildiriş» formaları hazırlanmışdır.




Ümumilikdə 2017-ci il ərzində vergi orqanları tərəfindən vergi ödəyicilərinə 3.658.694 bildiriş göndərilmişdir. 2016-cı illə müqayisədə 2017-ci ildə göndərilən bildirişlərin sayı 1,5 dəfə çox olmuşdur.

2017-ci il ərzində vergi ödəyiciləri, bələdiyyələr, «vergi dostları», şagird və tələbələri ilə ümumilikdə 1016 görüş keçirilmişdir. İl ərzində vergi ödəyicisinə 63.427 ünvanlı xidmət göstərilmişdir ki, bu da 2016-cı illə (12.291) müqayisədə 5,2 dəfə çoxdur.




2017-ci il ərzində «Sual-cavab» bölməsinə daxil olan 2895 sual departament tərəfindən cavablandırılmışdır. 2016-cı illə müqayisədə (2094 sual) cavablandırılmış sualların sayı 1,4 dəfə çox olmuşdur.

**Aytən NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Dünyanın məşhur xəbər agentliklərindən olan «Euronews»da Azərbaycan «X-Road» texnologiyasını tətbiq edən qabaqcıl ölkə kimi təqdim olunaraq bildirilib ki, Estoniyadan sonra bu texnologiyadan istifadə edən ikinci ölkə olan Azərbaycanda həm elektron hökumət platforması, həm də Rəqəmsal Ticarət Qovşağı «X-Road» əsasında qurulub.

Azərbaycan 2018-ci ildə Dünya İqtisadi Forumunun ənənəvi inklüziv inkişaf indeksində inkişaf edən ölkələr arasında üçüncü yeri tutub.

Çin Bakı-Tbilisi-Qars dəmir yolu ilə Azərbaycan ərazisindən keçməklə Avropaya yük daşımağa başlayıb.

Türkiyədən Azərbaycana daşınan yük ilk dəfə olaraq İranın Astara limanından gəmi ilə yola salınıb.

Beynəlxalq Valyuta Fondu Azərbaycanın bu il və 2019-cu il üzrə qlobal iqtisadi artım proqnozunu 0,2 faiz artırıb.

Əmtəə Nişanları Mərkəzi ixtiraların, yeni texnologiyaların yaradılması və tətbiqinə alimlərin, ixtiraçıların, mühəndis-texniki işçilərin, fiziki şəxslərin və təsərrüfat subyektlərinin cəlb edilməsi, ixtiraçılıq sahəsində təbliğatın genişləndirilməsi məqsədilə perspektivli patentlərin müəyyən edilməsi, istifadəyə təklif olunması üçün ixtiraçılıq sahəsində nailiyyətlərə görə V Respublika Müsabiqəsi elan edib.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# İpoteka kreditlərindən daha çox gənc ailələr faydalanır

**Ölkədə maliyyə vəsaitlərinə çıxış imkanlarını, kreditlərə təminat verilməsi mexanizmlərini yeni iqtisadi alətlərlə daha da təkmilləşdirmək, əhalinin rifahının yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlərin səmərəliliyini daha da yüksəltmək məqsədilə ölkə başçısının 2017-ci il 25 dekabr tarixli fərmanı ilə «Azərbaycan İpoteka Fondu» ASC və «Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu» ASC birləşmə formasında Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu yaradılmışdır. Bu ildən fəaliyyətə başlayan fond ipoteka kreditləri ilə yanaşı, ölkədə sahibkarlığa verilən kreditlərə zəmanətləri və subsidiyaları təmin edəcəkdir. Yeni mexanizmin tətbiqi potensial daxili maliyyə imkanlarının bazar şərtləri ilə iqtisadi artıma yönləndirilməsinə, qeyri-neft sektorunun, sahibkarlığın dəstəklənməsinə, bank sisteminin risklərinin azaldılmasına, maliyyə vəsaitlərinin dəyərinin aşağı salınmasına xidmət göstərəcəkdir.**

***İpoteka kreditləşməsi sahəsində yeniliklər***

İpoteka və Kredit Zəmanət Fondundan verilən məlumata görə, yeni təşkilatın hüquqi varisi olduğu «Azərbaycan İpoteka Fondu» ASC tərəfindən ötən il əhalinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə uzunmüddətli ipoteka kreditlərinin verilməsi və ipoteka kreditləşməsinə maliyyə resurslarının cəlb olunması istiqamətində işlər davam etdirilmişdir. İl ərzində ölkədə ipoteka kreditləşməsi sisteminin təkmilləşdirilməsi, əhalinin ipoteka kreditlərinə çıxışının genişləndirilməsi məqsədilə əhəmiyyətli qərarlar qəbul olunmuş, bir sıra yeniliklər tətbiq edilmişdir. Bu yeniliklərdən biri güzəştli kateqoriyaların dairəsinin genişləndirilməsi olmuşdur. 15 il dövlət qulluğunda işləyən şəxslərlə yanaşı, dövlət qulluğunun xüsusi növündə xidmət keçənlər, eləcə də ən azı 3 il elmi vəzifədə çalışan elmi işçilər də güzəştli ipoteka krediti almaq hüququ olan şəxslərə aid edilmişdir.

«Elektron ipoteka sistemi»nin «Elektron hökumət portalına» inteqrasiyası işləri tamamlanmış və ötən ilin avqustundan əhalinin istifadəsinə verilmişdir.

Bununla yanaşı, mülkiyyət hüququ dövlət qeydiyyatına alınmış yaşayış sahələri ilə yanaşı, qabaqcadan qeydiyyata alınmış yaşayış sahələrinin alınmasına da ipoteka kreditləri verilmişdir. 2017-ci il ərzində qabaqcadan qeydiyyat mexanizmi ilə 34,9 milyon manat məbləğində ipoteka krediti verilmişdir.

Digər bir yenilik isə yaşayış sahəsinin təmirli olmasına dair tələbin ləğv edilməsi və adi ipoteka kreditləri hesabına alınacaq yaşayış sahələrinin orta bazar qiyməti ilə bağlı tələbin aradan qaldırılmasıdır. Bütün bunlar əhalinin ipoteka kreditləri vasitəsilə mənzil almaq imkanlarının, o cümlədən ipoteka kreditlərinin əhatə dairəsinin genişləndirilməsinə zəmin yaratmışdır.

İpoteka kreditləşməsinin effektivliyinin və əhalinin bu kreditlərə çıxış imkanlarının genişləndirilməsi məqsədilə adi ipoteka kreditləri üzrə maksimal məbləğ 100 min manatdan 150 min manatadək artırılmış, maksimal faiz dərəcələri isə dəyişdirilmədən saxlanılmışdır.

***Zəmanət mexanizminin tətbiqinə başlanılacaq***

Şəxsi yığımları az olan əhaliyə daha aşağı ilkin ödəniş məbləği ilə ipoteka krediti vasitəsilə yaşayış sahəsi almağa şərait yaradılması məqsədilə zəmanət mexanizminin tətbiqi ilə bağlı işlər yekunlaşmışdır. «Azərbaycan İpoteka Fondu» ASC ilə Dünya Bankı arasında imzalanmış birgə əməkdaşlığa dair saziş çərçivəsində qabaqcıl beynəlxalq təcrübə araşdırılmış, Dünya Bankının mütəxəssislərinin iştirakı ilə zəmanətlərin verilməsi üzrə müvafiq qaydaların layihəsi hazırlanmış, eləcə də risklərin idarə edilməsi üzrə baza modeli və müvafiq mexanizm formalaşdırılmışdır. İpoteka kreditləri üzrə zəmanət mexanizminin 2018-ci ilin ilk rübündə tətbiqinə başlanılması nəzərdə tutulur. Zəmanət mexanizminin tətbiqi ipoteka kreditlərinin verilməsi prosesinin sürətləndirilməsinə və sadələşdirilməsinə, habelə maliyyə risklərinin optimal idarə olunmasına zəmin yaradacaq.

> **Zəmanət mexanizminin tətbiqi ipoteka kreditlərinin verilməsi prosesinin sürətləndirilməsinə və sadələşdirilməsinə, habelə maliyyə risklərinin optimal idarə olunmasına zəmin yaradacaq**

***Güzəştli ipoteka kreditləri***

İpoteka kreditlərinin verilməsi sahəsində yeniliklərin tətbiqi, prosesin əhəmiyyətli dərəcədə sadələşdirilməsi və tam avtomatlaşdırılması bu kreditlərə əhali arasında yüksək tələbin formalaşmasına gətirib çıxarmışdır. Nəticədə, əvvəlki illərlə müqayisədə 2017-ci ildə rekord sayda və ən yüksək həcmdə ipoteka kreditləri verilmişdir. Ötən il ərzində müvəkkil banklara ümumi məbləği 859,7 milyon manat təşkil edən 12.702 müraciət daxil olmuş, 203,1 milyon manat məbləğində 3109 ipoteka krediti verilmişdir. Həmin kreditlərin 1076 ədədi (70,6 milyon manat) güzəştli ipoteka kreditlərinin payına düşmüşdür.

Ümumilikdə, 2006-2017-ci illərdə Fondun vəsaiti hesabına verilmiş ipoteka kreditlərinin ümumi məbləği 944,3 milyon manata, bu kreditlər hesabına öz yaşayış şəratini yaxşılaşdırmış ailələrin sayı isə 21.300-ə yaxın olmuşdur. Kreditlərin 278,7 milyon manatdan çoxu (6238 kredit) güzəştli kateqoriyalara aid şəxslərə verilmişdir. İpoteka kreditlərindən faydalananların 70,3%-ni gənclər və gənc ailələr təşkil etmiş, 24,1%-i regionların payına düşmüşdür.

**Aytən NƏBİYEVA**

## Təsərrüfat subyektləri rəhbərlərinin nəzərinə!

Sizi ölkədə həyata keçirilən iqtisadi islahatların mühüm istiqaməti olan şəffaflığın artırılmasında fəal iştirak etməyə və bu məqsədlə maliyyə hesabatlarınızın düzgünlüyünə əmin olmağınız üçün müstəqil auditorların xidmətlərindən istifadə etməyə çağırırıq.

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və müvafiq dəstək göstərməyə hazırdır.

Xatırladırıq ki, qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən təsərrüfat subyektləri 2017-ci il üzrə maliyyə (mühasibat) hesabatlarının düzgünlüyünü yoxlatmaq üçün müstəqil auditor cəlb etməlidirlər:

| | | |
|---|---|---|
| 1 | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.91.4) əsasən. |
| 2 | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.107.6) əsasən. |
| 3 | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununa (maddə 8, 9, 44, 45, 46 və s.) əsasən. |
| 4 | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununa (m.74) əsasən. |
| 5 | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununa (m.26) əsasən. |
| 6 | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 10 iyun tarixli 123-IQ saylı Qanununa (m.16) əsasən. |
| 7 | Fond və birjalar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə(m.115.3) əsasən. |
| 8 | Qiymətli kağızların emitentləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.1078) əsasən. |
| 9 | Büdcədənkənar fondlar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.115) əsasən. |
| 10 | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 11 | Bələdiyyələr və bələdiyyə müəssisələri | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununa (m.10,13), "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 2 iyul tarixli 358-IIQ saylı Qanununa (m.11.14, 39.1) əsasən. |
| 12 | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 13 | Təbii inhisar fəaliyyəti subyektləri | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 14 | Publik hüquqi şəxslər | "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ saylı Qanununa və onların nizamnamələrinə əsasən. |
| 15 | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununa (m.5.4) əsasən. |
| 16 | Siyasi Partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.14.6) əsasən. |

Xatırladırıq ki, Azərbaycan Respublikası «İnzibati Xətalar Məcəlləsi»nin 464-cü maddəsinə görə, qanunvericiliklə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə inzibati xəta haqqında protokol tərtib ediləcək və inzibati cərimələr tətbiq olunacaqdır.

Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (http://www.audit.gov.az).

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI

## Vergilərlə bağlı yeni dərs vəsaiti

Vergilər Nazirliyinin Tədris Mərkəzinin əməkdaşları - Əli Həsənov, Ceyhun Mehdiyev, Elbəyi Hüseynov, Ramiz Məhərrəmov, Zahir Babayev və Fariz Yadigarovun birgə müəllifliyi ilə «Vergi inzibatçılığı» adlı dərslik hazırlanaraq nəşr edilmişdir. Dərslikdə vergi inzibatçılığının iqtisadi mahiyyəti, təşkilati funksiyaları, prinsipləri, eləcə də təcrübi aspektləri təqdim edilmişdir.




Kitabda səyyar vergi yoxlamalarının, operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi, təqdim edilmiş bəyannamələrin kameral yoxlanılması, vergi borclarının alınması prosedurları, vergi ödəyicilərinin qeydiyyatı və uçotu, vergi ödəyicilərinə xidmətlə bağlı məsələlər, koordinasiya və kargüzarlıq barədə mövzular öz əksini tapmışdır.

Dərslik iqtisadi və hüquqi ixtisaslar üzrə təhsil alan tələbələr, magistrlər, doktorantlar, müəllimlər, həmçinin vergi inzibatçılığını müstəqil şəkildə öyrənmək istəyənlər üçün də faydalı olacaqdır.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Rusiya kriptovalyutaya nəzarət üçün mühüm addım atmağa hazırlaşır

Ölkədə planlaşdırılan tədbirlərin əsas istiqaməti belədir ki, maynerlər tədricən kölgədən çıxacaq və hüquqi şəxs kimi qeydiyyatdan keçməyə məcbur ediləcəklər.

Hazırda Rusiya Federasiyasının Maliyyə Nazirliyi kriptovalyuta dövriyyəsinin tənzimlənməsinə yönəldilmiş qanun layihəsi üzərində iş aparır. Nazir müavini Aleksey Moiseyev bildirmişdir ki, layihə 2018-ci ilin ilk yarısında hazır olacaq. Onun sözlərinə görə, fərdi taksi sürücüləri ilə dolanışığını mayninq fəaliyyətindən çıxaran insanlar arasında heç bir fərq yoxdur. Ona görə də sürücülər kimi maynerlər də qeydiyyata düşməli və öz gəlirlərindən dövlətə vergi ödəməlidirlər. Mərkəzi Bankın mövqeyi də Maliyyə Nazirliyinin mövqeyi ilə üst-üstə düşür. İki ay əvvəl - ötən ilin noyabrında Mərkəzi Bankın rəsmisi Olqa Skorobatova rəsmi açıqlama verərək bildirmişdi ki, mayninq fəaliyyəti biznes olduğuna görə, bu işlə məşğul olanlar qeydiyyata alınmalıdır.

Hökumətin mövqeyi qəti olsa da, bu yolda sualtı daşlar da kifayət qədərdir. Məsələnin mahiyyəti belədir ki, hazırda hər bir fərdi kompüter istifadəçisinin mayninqlə məşğul olmaq imkanı var. Bunun üçün güclü kompüter və videokart kifayət edir. Bu cür videokartların sayı artanda isə mayninq firması alınır. Qeyd olunan amilləri nəzərə alan ekspertlər qanunvericilik təşəbbüsünü heç də birmənalı qarşılamamışlar və bu işdə çoxlu əngəllərin mövcud olduğu qənaətindədirlər. Birincisi, mayninqin nə olduğu hələ tam aydın deyil: bu, bir proqram fəaliyyətidir, yoxsa istehsalatdır? Onu öz gəlirlərindən vergi ödəməli olan data-mərkəz kimi də qəbul etmək mümkündür. İkinci məqam maynerlərin vergi orqanlarında qeydiyyata düşmələri ilə bağlıdır. Kriptovalyutaçıların heç də hamısı könüllü qeydiyyata düşmək istəmir, ona görə də maynerləri uçota götürmək çətindir. Hələlik əldə olan vasitə elektrik enerjisi sərfiyyatıdır - elektrik sərfiyyatına görə insanları vergiyə cəlb etmək isə real görünmür.

Bu sahəyə nəzarətin təmin edilməsi üçün vergi və hüquq-mühafizə orqanlarının blokçeyn texnologiyalarından, eləcə də kriptovalyuta bazarının xüsusiyyətlərindən başı çıxan işçilər hazırlayacağı istisna edilmir.

Vergi bazasının müəyyənləşdirilməsi mərhələsində də çətinliklərin ortaya çıxacağı gözlənilir. Çünki həm kriptovalyutanın əldə edilməsi, həm də onun kursunun artması gəlir növləri sayılır. Bunların hansından vergi tutulmalıdır - bu məsələ hələ sual altındadır.

# Macarıstan internet xidmətlərinə görə ƏDV tutulması üçün tarif tətbiq edir

Macarıstanda internet xidmətlərindən istifadə üçün əlavə dəyər vergisinin dərəcəsinin beş faizə salınması ilə bağlı tədbirlər davam etdirilir. Belə görünür ki, Avropa İttifaqı qanunlarına zidd olsa belə, Macarıstan bu istiqamətdə irəliləməkdən daşınmayacaq. Məsələ bundadır ki, Avropa İttifaqının əlavə dəyər vergisi ilə bağlı Direktivinin III Əlavəsinə ƏDV-nin aşağı dərəcəsinə aid edilə biləcək xidmət və malların siyahısı daxil edilməmişdir.

ƏDV rejimi ilə bağlı dəyişiklik ölkənin 2017-ci il üçün dövlət büdcəsi təsdiqlənərkən nəzərdə tutulmuşdu. Qeyd edilmişdi ki, 2017-ci il üzrə dövlət büdcəsində bu cür xidmətlərdən tutulan ƏDV-nin dərəcəsi 27 faizdən 18 faizə endiriləcək. Həmin vaxt Avropa İttifaqının vergi məsələləri üzrə komissarı Pyer Moskovisi internetdən istifadə xidmətlərini Direktivinin III Əlavəsinə ƏDV-nin aşağı dərəcəsinə aid edilə biləcək xidmət və malların siyahısına daxil olunmasını təklif etmişdi.

# İrlandiyada əmlak vergisinə dəyişiklik məsələsinə baxılır

Yaxın zamanlarda İrlandiyada əmlak vergisi ilə bağlı dəyişiklik ediləcəyi gözlənilir. Hökumətin verdiyi açıqlamada bildirilmişdir ki, əmlak vergisinin hesablanması yalnız obyektlərin bazar qiymətinə əsaslanmayacaq. Müstəqil ekspertlər də bu sahədə təxirəsalınmaz tədbirlər görülməsinin zəruri olduğuna tərəfdardırlar.

Keçən il İrlandiyada əmlak vergisi yığımları 477 milyon avro təşkil etmişdi. Lakin müxtəlif ərazilər üzrə yığımlar arasında kəskin fərqlər özünü göstərməkdədir. Paytaxt Dublinin bir sıra regionlarında ödənilən məbləğlər kənd yerlərindəki yığımların məbləğini bəzən dörd dəfə üstələyir.

Bazar analitiklərinin rəyinə əsasən, hazırda qüvvədə olan əmlak vergisi 2013-cü ildən tətbiq edildiyi üçün hazırkı şəraitdə bir sıra uyğunsuzluqlara yol açır. Bu il həmin qanuna yenidən baxılmasına ehtiyac var: bahalı evlərdə yaşayan yaşlı adamlar üçün müəyyən güzəştlər verilməlidir.

# Finlandiyada alkoqollu içkilər üçün vergi artırılıb

Finlandiya parlamentinin qərarından sonra spirtli içki alan finlər bu ilin başlanğıcından daha artıq pul ödəmək məcburiyyətindədirlər.

Maliyyə Nazirliyindən bildirildiyinə görə, alkoqollu içkilər üçün verginin dərəcəsi orta hesabla 10 faiz artırılmışdır və bu, pərakəndə satış qiymətinin 5 faiz artması ilə nəticələnmişdir.

Vergi dərəcələrinin artırılması tərkibində 15% və daha az spirt olan içkilərə - pivə, sidr və şərab məhsullarına aiddir. Spirtli içkilərə görə tutulan verginin artırılmasının dövlət büdcəsinə hər il əlavə 100 milyon avro vəsait gətirəcəyi gözlənilir.

# Vergi limanlarının «qara siyahı»sı gündəmdən düşmür



Keçən ilin dekabr ayının əvvəllərində Avropa İttifaqı (Aİ) öz internet saytında zəruri maliyyə şəffaflığına malik olmayan ölkələrin siyahısını açıqlamışdı. Onların adları vergidən yayınmaya, eləcə də digər fırıldaqçılıq fəaliyyətlərinə və qanunsuzluqlara şərait yaratmaqda hallandırılırdı. «Qara siyahı» İttifaqa daxil olan ölkələrin maliyyə nazirlərinin iclasından dərhal sonra nəşr edilmişdi.

Siyahıda maliyyə əməliyyatlarının qanuniliyi ilə bağlı Aİ tərəfindən hazırlanmış meyarlar əsasında dialoqa daxil olmayan, həmçinin aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün zəruri səyləri göstərməyən ölkələr barədə məlumata da yer verilmişdi. «Aİ ilə əməkdaşlıq etməyən» yurisdiksiyaların siyahısına 17 ərazinin və ölkənin adı daxil edilmişdi ki, buraya Bəhreyn, Barbados, Samoa, Quam, Koreya, Monqolustan, Qrenada, Marşall adaları, Panama, Trinidad və Tobaqo, Tunis, Namibiya, Birləşmiş Ərəb Əmirlikləri və digərləri aid idi.

Açıqlamada qeyd edilmişdi ki, «qara siyahı»ya düşən yurisdiksiyaların əksəriyyətində güzəştli vergi rejimləri tətbiq olunur və onlar 2018-ci ilin sonuna qədər bu güzəştləri ləğv etmək və ya dəyişdirmək niyyətində deyillər. Bundan əlavə, həmin ölkələr və ərazilər gəlirlərin yerinin dəyişdirilməsinin və vergi bazasının «yuyulmasının» qarşısının alınması üçün hər hansı təsirli tədbir görmürlər. Aİ Şurasına sədrlik edən Estoniyanın maliyyə naziri T.Tınistenin bildirdiyinə görə, bu proses birdəfəlik deyil, müntəzəm səciyyə daşıyır, siyahı monitorinqin gedişində əldə edilmiş məlumatlar əsasında daim yenilənəcək. Aİ-nin məqsədi isə savadlı vergi idarəetməsinin yeni normaya çevrilməsinə nail olmaqdır.

Bu ilin əvvəlində isə ABŞ-ın xəzinədarlıq departamenti Aİ-nin nəşr etdirdiyi «qara siyahı» ilə razılaşmadığı barədə açıqlama verdi. Açıqlamada bildirilir ki, vergi limanlarının «qara siyahıya» alınması vergitutma səviyyəsinin aşağı olduğu zonaların müəyyənləşdirilməsi ilə bağlı beynəlxalq standartlara ziddir.

ABŞ-ın maliyyə naziri Stiven Mnuçinin Aİ-nin Baş katibi Cepp Tranholm-Mikkelsona göndərdiyi məktubda siyahını tərtib edən avropalı ekspertlər kəskin tənqid edilmişdir, 17 vergi limanını əhatə edən siyahıda heç bir Avropa ölkəsinin adı verilməsə də, burada Quam adalarının və Amerikanın Samoa adalarının adı çəkilir. Bundan əvvəl isə Aİ Birləşmiş Ərəb Əmirliklərinin qəzəbinə tuş gəlmişdi - rəsmi Dubayı İsveçrə, İrlandiya, Lixtenşteyn kimi Avropa ölkələrinin olmadığı siyahıya salınması narahat edir. Mnuçin öz məktubunda qeyd etmişdir ki, ABŞ Aİ-nin Avropanın təsir dairəsində olan əraziləri siyahıdan çıxarması ilə razı deyil. Onun fikrincə, bu cür təcrübə vergidən yayınmaya qarşı mübarizə sahəsində göstərilən səyləri yolundan sapdırır. Bununla belə, ABŞ Quam adalarının və ABŞ-ın yurisdiksiyasına daxil olan Amerika Samoa adalarının bu siyahıya salınmasına qarşı çıxmışdır.

Bu mövzuda yayılmış son məlumatda isə bildirilir ki, Aİ səkkiz yurisdiksiyanın vergi limanlarının «qara siyahı»sından çıxarılmasını təklif etmişdir. Aİ-nin açıqlamasında qeyd edilmişdir ki, siyahıya salınmış 17 yurisdiksiyadan səkkizi - Panama, Cənubi Koreya, Barbados, BƏƏ, Qrenada, Makao, Monqolustan və Tunis siyahıdan çıxarıla bilər. Bu ölkələrin öz vergi qanunvericiliyində dəyişiklik etmək təklifi ilə çıxış etdiyi bildirilmişdir. Bəhreynin də siyahıdan çıxarılacağı ehtimal edilsə də, hələlik bu ölkə barədə təklif verilməmişdir.

# İndoneziya vergi daxilolmalarının artacağına inanır

Keçən il İndoneziyada vergi yığımı üzrə qarşıya qoyulmuş hədəfə çatmaq mümkün olmasa da, hökumət bu il vergi yığımlarının 20 faiz yüksələcəyinə ümid edir.

Qeyd edək ki, 2017-ci ilin nəticələrinə görə, ölkədə 9 faizlik büdcə kəsiri qeydə alınmışdır. Lakin hökumət bu il vergi daxilolmalarının əsaslı dərəcədə artırılacağına ümid edir. Rəsmi dairələr bunu neft-qaz sektorundan gələn vergilərdən və əlavə dəyər vergisindən başqa, iqtisadiyyatın digər sektorlarından daha çox vəsait daxil olacağı ilə izah edirlər.

Vergi Agentliyinin baş direktoru keçən il qarşıya 1.472,7 trilyon İndoneziya dolları (109,4 milyard ABŞ dolları) vergi yığmaq hədəfi qoymuşdu. Lakin bu il yanvarın əvvəlində agentlik açıqlama yayaraq qarşıya qoyulmuş hədəfə 91 faiz nail olunduğunu bildirdi: ötən il vergi gəlirlərinin həcmi hədəfdən az - 1340 trilyon İndoneziya dolları (99,5 milyard ABŞ dolları) olmuşdur.

Agentliyin məlumatında bildirilmişdir ki, vergi daxilolmaları ilə bağlı hədəf keçənilki hədəflə müqayisədə 9,9 faiz artırılmışdır. Vurğulanmışdır ki, hökumət vergilərin ödənilməsinə əməl edilməməsi hallarına qarşı mübarizəni gücləndirmək əzmindədir. Ölkə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Ümumi Hesabatlılıq Standartlarına əsasən, maliyyə məlumatlarının beynəlxalq səviyyədə mübadiləsini həyata keçirəcək, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görəcək, daxili sistemləri modernləşdirəcək və vəzifəli şəxslərin hazırlığının təkmilləşdirilməsinə diqqəti artıracaq.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Tutuquşukimilər dəstəsinə aid fəsilə; 2.Neptunun peyki; 3.Su, şəkər və nişasta istifadə edilərək hazırlanan türk şirniyyatı; 4.«Nizami» filminin (1982) baş qəhrəmanının obrazını canlandıran sənətkarın adı. Azərbaycanın görkəmli opera və estrada müğənnisi, bəstəkar, SSRİ xalq artisti; 5.Mal ətindən hazırlanan, ingilis mətbəxinə aid xörək; 6.Kür-Araz düzənliyinin ayrı-ayrı hissələrində təsadüf edilən və Azərbaycanın «Qırmızı kitab»ına daxil edilmiş quş; 7.Şotlandiyanın şimal-qərbində şəhər; 13.Bir şeyin kənarlarından, uclarından az-çox bərabər dərəcədə aralı olan yer; 15.Tərkibində kalium və natrium alümosilikatı olan süxur (mineral); 16.Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar mədəniyyət işçisi, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdirinin adı; 17.İnternaturanı keçən tələbə; 18.Nazik, yarımşəffaf parça; 20.Türkiyənin «Trabzonspor» komandasında hücumçu mövqeyində çıxış edən əslən azərbaycanlı futbolçunun adı. Hazırda Rusiyanı təmsil edir; 21.Rusiya Federasiyasının Kareliya Respublikasında çay. **Soldan sağa:** 1.Firmaların birləşməsi; 8.Venesuelanın paytaxtı; 9.Rusiyada çay; 10.Tanrının mövcudluğunu və kainatın onun tərəfindən yaradıldığını etiraf edən, lakin tanrının insanlara və təbiətə müdaxiləsini, dinlərin tanrı tərəfindən yaradılmasını inkar edən təlim; 11.Həndəsi fiqur; 12.Mərkəzi Afrikada dövlət; 14.Qədim yunan mifologiyasında hərb və zəfər, eləcə də müdriklik, bilik, incəsənət və sənətkarlıq ilahəsi; 19.İfaçılıqda səs diapozonu; 21.Əsərlərini alman dilində yazmış yəhudi əsilli yazıçı; 22.Rusiyada şəhər; 23.Məşhur İsveçrə riyaziyyatçısı. Ehtimal nəzəriyyəsinin və riyazi analizin banilərindən biri; 24.İrlandiya və Şotlandiyada geniş yayılmış ənənəvi rəqs və musiqi ritmi; 25.İstirahət və sağlamlıq mərkəzi.



*«Nizami» filmindən fraqment (1982)*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Etalon; 2.Ondantra; 3.Elton *(Con)*; 4.Tərtər; 5.İntriqa; 6.Monax; 7.Forint; 13.İran; 15.Posadas; 16.Skelet; 17.Balans; 18.Karrar; 20.Balet; 21.Koala. **Soldan sağa:** 1.Eqosentrizm; 8.Auditor; 9.Tenor; 10.Oktan; 11.Əmirxan *(bəy)*; 12.Rasim *(Balayev)*; 14.«Kaspi»; 19.Kabbala; 21.Kasta; 22.Lalə; 23.Bayandur; 24.Tot; 25.Dispanser.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Cüdoçularımız «Böyük Dəbilqə» turnirinə hazırlaşırlar

Gələn ay Fransanın paytaxtı Parisdə və Almaniyanın Düsseldorf şəhərində cüdo üzrə «Böyük Dəbilqə» yarışları keçiriləcək. Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, bu mötəbər turnirlərdə ölkəmizin milli komandası da mübarizə aparacaq.

Baş məşqçi Ruslan Maşurenkonun rəhbərliyi ilə cüdoçularımız hazırda Bakı Olimpiya Stadionundakı təlim-məşq bazasında beynəlxalq yarışlara hazırlaşırlar. «Böyük Dəbilqə» turnirində ölkəmizi Tərlan Kərimov, İlqar Müşkiyev (hər ikisi 66 kq), Fəqan Quluzadə (81 kq), Rüfət İsmayılov, Əbdülhəqq Rəsullu (hər ikisi 90 kq), Zelim Kotsoyev (100 kq), Bazarakça Erdenabat (48 kq), Buyankişiq Purevsuren (52 kq), İçinkorlo Munktsedev (57 kq), İrina Kindzerska (+78 kq) təmsil edəcəklər.



# İlk qarşılaşma final oyununa bərabərdir...

Futzal üzrə milli komandamız yanvarın 10-dan məşqlərə başlayıb və artıq karyerasını ölkə xaricində davam etdirən oyunçularımız da komandaya qoşulublar. Bu sözləri Sloveniyanın Lyublyana şəhərində təşkil olunacaq Avropa çempionatının final mərhələsində iştirak edəcək futzal üzrə Azərbaycan milli komandasının baş məşqçisi Joze Alesio Da Silva yanvarın 19-da Bakı İdman Sarayında təşkil olunan mətbuat konfransında deyib.

Baş məşqçi bildirib ki, final mərhələsinə yollanacaq heyət İran millisi ilə keçiriləcək iki yoldaşlıq oyunundan sonra müəyyənləşəcək: «Əsas məqsədimiz mərhələ adlamaqdır. Buna görə də Fransa ilə keçirəcəyimiz oyunun nəticəsindən çox şey asılıdır. Hətta bu qarşılaşmanı final oyunu kimi də xarakterizə edərdim. Digər rəqibimiz İspaniyanın gücü və qazandığı nəticələr hamıya məlumdur. Sadəcə, ilk oyunda Fransa ilə qarşılaşacağımıza görə, bütün diqqətimizi bu görüşə yönəltmişik».

Millimizin üzvü Vitali Borisov deyib: «Maraqlı qrupumuz var. İspaniya və Fransa kimi komandalarla qarşılaşacağıq. Avropa çempionatında zəif rəqib olmur. Fransa millisi ilk dəfə bu cür yarışda iştirak etmək hüququ qazansa da, play-offda Xorvatiya kimi güclü rəqibi mübarizədən kənarlaşdırıb. Qrupumuzdakı hər bir komandanın növbəti mərhələyə yüksəlmək üçün şansı var. Hər şey oyunlar zamanı məlum olacaq. Hər bir komanda uda və ya uduza, bir-birindən xal ala bilər».

Xatırladaq ki, Azərbaycan millisi qitə birinciliyinin qrup mərhələsi çərçivəsində fevralın 2-də Fransa, iki gün sonra İspaniya yığması ilə qarşılaşacaq.

# Dakar ralli yarışına yekun vurulub



Azərbaycan Avtomobil Federasiyasının saytında yayılan məlumata görə, motosikletçilərin mübarizəsində qələbəni «Red Bull KTM Factory» komandasının təmsilçisi Mattias Valkner qazanıb. Avstriyalı idmançı və MX3 seriyasında motokross üzrə dünya çempionu rallinin 14 mərhələsini ümumilikdə 43 saat 6 dəqiqə 1 saniyəyə qət edərək karyerasında ilk dəfə Dakar ralli çempionu tituluna sahib olub. Digər iki yerdə müvafiq olaraq «Monster Energy Honda Team»dən Kevin Benavides (16 dəqiqə 53 saniyə) və «Red Bull»un daha bir təmsilçisi Tobi Prays (23 dəqiqə 1 saniyə) qərarlaşıblar.

Çilili İqnasio Kasale isə kvadrasiklların mübarizəsində birinciliyin qalibi adını qazanıb. «Casale Racing» komandasının təmsilçisi ilə digər iki yeri tutan pilotlar arasında vaxt məsafəsinin kifayət qədər böyük olması ən çox müzakirə olunan mövzulardandır. Belə ki, İ.Kasale «Team Al Desert» komandasından argentinalı Nikolas Kavilyassonu ümumi nəticədə 1 saat 38 dəqiqə 52 saniyə «Consultores De Empresas» təmsilçisi Xeremias Qonsales Ferioli isə 2 saat 8 dəqiqə 14 saniyə üstələyib.

Avtomobillərin yarışında ispaniyalı Karlos Saynz birinci yeri tutub. Ralli üzrə ikiqat dünya çempionu, «Team Peugeot Total» kollektivini təmsil edən pilot 14 mərhələdə 49 saat 16 dəqiqə 18 saniyə nəticə göstərib. O, bununla da 2010-cu ildə əldə etdiyi nəticəni təkrarlayıb. Digər iki yeri «Toyota Gazoo Racing Sa» komandasının nümayəndələri Nasser Al-Attiya (43 dəqiqə 40 saniyə) və Jiniel De Villers (1 saat 16 dəqiqə 41 saniyə) tutublar.

Yük avtomobillərinin mübarizəsində Rusiyanın «Kamaz» ekipajı bu dəfə də bütün rəqiblərini geridə qoyub. Eduard Nikolayevin başçılıq etdiyi kollektiv yekunda 54 saat 57 dəqiqə 37 saniyəlik göstərici ilə Dakar tarixində 14-cü qələbəsini rəsmiləşdirib. Belarusun «Maz-Sportauto» komandası (3 saat 57 dəqiqə 17 saniyə) ikinci, Rusiyanın daha bir təmsilçisi Ayrat Mardeyevin rəhbərlik etdiyi «Kamaz - Master» kollektivi (5 saat 22 dəqiqə 34 saniyə) isə üçüncü yerlə kifayətlənib.

# İdmançımızdan parlaq qələbə



Azərbaycanın dünya səviyyəli idmançısı, kikboksinq üzrə peşəkarlar arasında dördqat dünya çempionu, Avropa çempionu, «Qəbələ» idman klubunun döyüşçüsü Pərviz Abdullayev bu günlərdə növbəti qələbəsini qazanıb. Bu dəfə Türkiyənin Mersin şəhərində təşkil olunan muay-tay yarışında qüvvəsini sınayan 32 yaşlı idmançımız daha bir uğura imza atıb. Turnirdə 75 kiloqram çəki dərəcəsində çıxış edən P.Abdullayev Türkiyə təmsilçisi İsmayıl Uzuner ilə qarşılaşıb və rinqi qələbə ilə tərk edib.

## mozaika

texnologiya



# Süni intellekt diaqnoz qoyur

ABŞ-ın «Zebra-Med» təşkilatı tərəfindən yaradılmış yeni texnologiya süni intellektə maqnit-rezonans tomoqrafiyasının nəticələrini araşdırmağa və insanın orqanizmində normadan sapmaların mövcudluğunu müəyyən etməyə imkan verir.

Hazırda süni intellekt 11 xəstəliyə diaqnoz qoya bilir. Bu göstərici cari ilin sonuna kimi 17-yə çatacaq. Texnologiya insana xəstəliyin öhdəsindən gəlməyə kömək edəcək. Xidmətin qiyməti 1 ABŞ dolları olacaq. Süni intellekt yüksək təzyiq, tənəffüs yolları, onkoloji xəstəliklər və digər sağlamlıq problemlərinə diaqnoz qoya bilir. Həkimlər xəstəliyin vaxtında aşkarlanmasını uğurlu müalicənin təminatı hesab edirlər. Alimlər gələcəkdə texnologiyanı inkişaf etdirməyi planlaşdırırlar.

mədəniyyət

# Azərbaycan-Amerika Musiqi Fondu

2018-ci ilin yanvarında Birləşmiş Ştatlarda Azərbaycan-Amerika Musiqi Fondu təsis edilib. Təşkilat ABŞ-Azərbaycan mədəni münasibətlərinin inkişafına töhfə verməyə hazırlaşır. Fondun təsisçiləri hesab edirlər ki, musiqi sahəsində əməkdaşlıq etməklə iki ölkənin mədəniyyətinin öyrənilməsi xalqlarımız arasında qarşılıqlı anlaşmanı daha da inkişaf etdirəcək. Qeyri-hökumət təşkilatı olan

Fond iki ölkə arasında qarşılıqlı münasibətlərin qurulması və inkişaf etdirilməsi üçün vasitə olaraq musiqidən və musiqi təhsilindən istifadə etməyi nəzərdə tutur. Təşkilatın başlıca məqsədi Azərbaycan musiqisini və onun görkəmli nümayəndələrini ABŞ-da təbliğ etməkdir. Azərbaycan-Amerika Musiqi Fondunun təsisçilərindən biri və icraçı direktoru, musiqi sənəti doktoru Cəmilə Cavadova-Spitsberqə görə, qurum Azərbaycan musiqisini amerikalı dinləyiciyə təqdim etməklə yanaşı, ABŞ musiqiçilərinin azərbaycanlı həmkarları ilə əlaqələr yaratmasına kömək edəcək.

Qeyd edək ki, təşkilat böyük Azərbaycan bəstəkarı Qara Qarayevin anadan olmasının 100 illik yubileyi şərəfinə 2018-ci ili «Qara Qarayev ili» elan edib. Bununla bağlı ABŞ-ın müxtəlif şəhərlərində Qara Qarayev irsinə həsr olunmuş tədbirlər və konsertlər keçirmək planlaşdırılır.

cəmiyyət

# Nazirlik və komitələrdə vahid geyim forması

Tacikistanın nazirlik və komitələrində xüsusi emblemi və nişanı olan vahid geyim forması tətbiq ediləcək. Tacikistan Prezident Aparatının işçilərinin formasının mavi rəngdə olması nəzərdə tutulur.

Hazırda geyim eskizləri üzərində xüsusi qrup çalışır. Eskizlərin hazırlanması ilə bağlı təlimatda tacik qadınların milli və dövlət bayramlarında necə geyinmələri, paltarların hansı parçadan tikilməsi haqqında tövsiyələr də yer alıb.



Tacikistanın Təhsil və Elm Nazirliyinin bütün tədris müəssisələrinə göndərdiyi məktubda tələbələrə və şagirdlərə martın 1-dək milli parçalardan tikilən paltarlar geyinmək məsləhət görülür.

sağlamlıq

# Tibbi bankalar: faydalıdır, yoxsa ziyanlı?

AZƏRTAC-ın bu mövzuda apardığı araşdırmaya əsasən, postsovet ölkələrində, o cümlədən Azərbaycanda banka çox geniş yayılsa da, bir sıra ölkələrdə, eləcə də ABŞ-da tibbi bankalardan istifadə qadağan olunub.

Bir sıra həkimlərin fikrincə, tibbi bankalar qoyulması ilə təkcə soyuqdəymə deyil, həmçinin kəskin mərhələ keçəndən və temperatur azalandan sonra bronxit və pnevmoniyalar da müalicə olunur, onun başağrısı, qarın, bel, kürək və oynaq ağrıları zamanı da faydalı olduğu hesab edilir. Müasir Çin təbabəti hələ də başgicəllənməsi, öskürək, bronxial astma, hətta ishalın müalicəsində də banka qoyulmasının faydasını istisna etmir. Tibbi bankalarla müalicənin tərəfdarlarının qənaətinə görə, osteoxondroz, əzələ spazmı, radikulit, lümbaqo, bronxit, xroniki pnevmoniya, bronxial astma, mədə və onikibarmaq bağırsaq xəstəliklərində onun faydalı təsiri var.

Banka prosedurunun ən mənfi cəhətlərindən biri onların yerində qalan ləkələrdir. Həmin ləkələr adi qançırı xatırlatsa da, gec sorulur. Vakuum-qradient müalicəsi ilə məşğul olan həkimlərin fikrincə, bankadan sonra qalan ləkə hematoma deyil, qanın damar divarından toxumalara sızmasıdır. Onun tərkibində təkcə qan elementləri yox, həmçinin plazma zülalları, bioloji aktiv maddələr- histamin, prostoqlandin, neyromediator, hormon və s. maddələr olur. Onlar orqanizmin müdafiə qabiliyyətinin bərpasına şərait yaradır. Ləkənin rənginin tündlük dərəcəsi xəstəliyin ağırlığı və orqanizmin toksinlərlə zəhərlənmə dərəcəsinə adekvat olaraq artır.

Xəstəlik yüngül formada olanda bankalama üsulu ilə ev şəraitində də müalicə aparılır. Bu vasitə ilə boyun və bel ağrılarını azaltmaq, arterial təzyiq, yuxusuzluq, başağrısı və yorulma zamanı xəstənin vəziyyətini yaxşılaşdırmaq mümkündür. Tibbi bankanı qoymaq üçün nazik çubuğa pambıq dolanır, spirtə batırılaraq yandırır, onu tibbi bankanın içinə salıb çıxarandan sonra dərhal bədənə, əsasən kürək nahiyəsinə qoyulur. Dəri bankaya sorulanda müalicəvi təsiri yüksək olur. Əvvəlcə 1 dəqiqə saxlanılır, növbəti dəfə zaman kəsiyi 15 dəqiqəyə qədər uzadılır. Prosedur zamanı xəstədə xoş hissiyyat olmayanda bankalar dərhal çıxarılmalıdır. Proseduru təkrar etmək lazım gələndə ən azı bir, yaxşı olar ki, iki-üç gün fasilə verilsin.



Mütəxəssislərin bir qismi təbii banka üsulunu qəbul etmir. Bəzi xəstəliklərdə isə banka qoyulması yolverilməzdir. Xüsusən endokardit, miokardit, ürək qüsurları, ağır hipertoniya, miokard infarktı və stenokardiya zamanı xəstəyə banka qoymaq olmaz. Bundan başqa, kəskin infeksiyalar, skleroz, damar trombozu, orqanizmin kəskin zəifləməsi və dəri xəstəlikləri zamanı da tibbi bankaların qoyulması əks göstərişdir.

faydalı

# Brokkoli xərçəngin qarşısını ala bilər



Elm adamları brokkoli kələminin yoğun bağırsaq xərçənginin müalicəsində istifadə oluna biləcəyini bildirib. Sinqapur Milli Universitetində bir qrup alim brokkolidə aşkar edilən xərçəng əleyhinə probiotiklər üzərində araşdırma aparıblar.

Tədqiqat zamanı probiotiklərin xərçəngin inkişafının qarşısını aldığı və yoğun bağırsaq xərçəngi hüceyrələrinin artmasına mane olduğu məlum olub. Alimlər probiotiklərin içərisinə kiçik bir orqanik molekul olan mirosinaz fermenti yerləşdiriblər. Məlum olub ki, xərçəng əleyhinə qlükozinolatlara uyğun gələn həmin probiotiklər laboratoriya mühitində siçanın və insanın yoğun bağırsaq xərçənginin hüceyrə xətlərinin artmasını 95 faiz əngəlləyir.

**Müdriklər deyib ki...**



*«İstənilən elmdə, istənilən sənətdə ən yaxşı müəllim təcrübədir».*

*Servantes (1547-1616)*